HƏSƏN SƏFFAR

# NƏHCUL-BƏLAĞƏDƏ HƏYATA BAXIŞ

HƏSƏN SƏFFAR

# NƏHCÜL-BƏLAĞƏDƏ HƏYATA BAXIŞ

Bakı-2005

Həsən Səffar, “Nəhcül-bəlağədə həyata baxış”
Bakı, «Qələm»-2005, 92 səh.

Tərcümə edəni: Cavid Ələkbərov

*Bu kitabda İmam Əli(ə)-ın «Həhcül-bəlağə»də toplanmış hədislərinə əsasən həyata sosial-ictimai və siyasi baxışları araşdırılmışdır.*
*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

DK-642d

© «QƏLƏM», 2005

# MÜQƏDDİMƏ

Dünyada iki milyarddan çox insan İslam ümmətinə mənsubdur. Bu ümmət məsafəsinə görə dünyanın ən böyük qitələrində: Asiya, Afrika və Avropada yerləşir və böyük strateji mövqelərdən faydalanır. Hind okeanı, Atlantik okeanı, Aralıq dənizi, Qırmızı dəniz kimi dünyanın əksər okean və dənizlərini əhatə edir. Suveyş kanalı, Hermez boğazı kimi böyük əhəmiyyətli, strateji cəhətdən faydalı keçid və boğazlarda hökmranlıq edir. Bu ümmətin bəzi dövlətləri neft istehsal edən ilkin dövlətlərdən hesab olunur. Həmçinin, bu ümmət dünya yanacağının ən böyük xəzinəsinin sahibidir. Belə ki, dünya ehtiyat yanacağının 60%-i, dünya ehtiyat fosfatının üçdə ikisi müsəlmanların yaşadığı ərazilərdə yerləşir. Münbit və səmərəli ərazilərdə əhatə olmaqla bu ümmət, mis, dəmir və manqan ehtiyatları ilə də zəngindir. Bu ümmət həyatın heç bir sahəsində özünün zati nemətlərindən faydalanmır və bütün bunları –silah, geyim, cihaz, ət, ümumiyyətlə, əksər qida məhsullarını xaricdən idxal edir. Bu ümmətdə sadalanan sərvətlərin hamısının olmasına baxmayaraq, hələ də ümmətin əksər cəmiyyətləri məhrumiyyət və yoxsulluq içində yaşayır. Milyondan artıq ailə isə çadır və daxmalarda ömür sürür.

Ümmətin ziyalı övladlarının əksəriyyəti dünyanın müxtəlif dövlətlərinə köçdüyü bir vaxtda, bu ümmət əkinçilik, maldarlıq, suyun saflaşdırılması kimi elmi və texnoloji sahələrdə elementar məlumat və xəbərə ehtiyac duymaqdadır. Birləşmiş Millətlər Təşkilatının «Bəşəriyyətin inkişafı» səpgili proqramının məsul məsləhətçisi, «Ərəb aləmində insanların sosial inkişafı» mövzusunda aşağıda qeyd edilən məlumatı yaymışdı.

Burada müsəlman xalqlarının üzləşdikləri məhrumiyyət, bəla və problemlər şərh olunur:

Yazıda qeyd edilmiş hesablamalara əsasən

–15% ərəbin 40 yaşdan artıq yaşaması ehtimal olunmur.

–Yetkinlik yaşına çatmış 60 milyon ərəb savadsızdır.

–45 milyon ərəb içilməsi yararlı sayılan sudan məhrumdur.

–29 milyon ərəb, kənd poliklinikası və xəstəxana kimi sağlamlıq xidmətlərindən məhrumdur.

–Yetkinlik yaşına çatmış 13% ərəb işsizlikdən əziyyət çəkir.

–50 milyon ərəb çirkləndirilmiş hava ilə tənəffüs edir.

–5 yaşdan aşağı 5 milyon uşaq pis qidalanmadan əziyyət çəkir.

–4 milyon uşaq orta məktəb tədrisinə yiyələnməkdən məhrumdur.

–Hamiləlik və doğuş halında ana ölümünün nisbəti hər 100 min nəfərdə 380-ə çatır. Bu, Latın Amerikası və Karibi məntəqəsindəki nisbətdən 2 dəfə, Şərqi Asiyadakı nisbətdən isə 4 dəfə çoxdur.

–Yetkinlik yaşına çatmış ərəb qadınlarının 50%-i savadsızdır.

–Yanacaq ixrac etməyən və əhalisi 236 milyon nəfər olan ərəb dövlətlərinin xarici dövlətlərə ixracı, əhalisinin sayı 5 milyon nəfər olan Hollandiyanın ixracatına bərabərdir.

–İl boyu xaricdən gətirilmiş qida məhsullarına hər bir fərd 100 dollar sərf edirdisə, 2000-ci ildə bu məbləğ 300 dollara çatacaq.(bu sözlər 2000-ci ildən öncə

yazılmışdır) Bu isə ərəb aləminin xaricdən gətirilmiş qida məhsulların 3 dəfə artıq istifadə edilməsi deməkdir.

–90-cı illərin statistikasına əsasən, ərəb məntəqələri iqtisadi böhran keçirmiş və hər bir fərdin illik gəliri təqribən 4,5% azalmışdır. Bu nisbət isə Afrika dövlətləri də daxil olmaqla, dünyanın müxtəlif məntəqələrindəki gəlir azlığından çox yüksək göstəricidir.

Bu iki ziddiyyətli surət –yəni lazım olan hər bir sərvətin olması və bu sərvətlərdən faydalı istifadə edilməməsi –sənin qarşında canlanan zaman, sənin təəssürat və mövqeyin necə olacaq?

Şübhəsiz ki, ümmətdə yaşanan bu reallıq səni dəhşətə bürüyəcəkdir və sən axtarış aparmağa çalışacaqsan ki, bəlkə ümmətdə bu müdhiş halı formalaşdıran səbəbləri aşkar edə biləsən. Tezliklə başa düşəcəksən ki, bu hal heç bir maddi səbəb üzündən deyil. Çünki yer kürəsi üzərində elə ümmətlər yaşayır ki, onların imkanları məhdud, güc və dözümləri isə daha azdır. Buna baxmayaraq çox gözəl yaşayır, sivilizasiya və tərəqqi üçün lazım olan hər vasitədən istifadə etməyi bacarır. Məsələn, Yaponiya kimi.

Ümmətdə əks olunan dərin geriliyin həqiqi və ilkin səbəbi odur ki, bu ümmətin məqsədyönlu, əməli və müəyyən bir həyat tərzini izləyəcək xəritəsi yoxdur. Bu səbəbdən də, ümmət həyatda öz rolunu bilmir, imkanlarının qədərini dərk etmir və ona hansı işləri həyata keçirmək lazım olduğunu bilmır. Bu, atası vəfat etmiş azyaşlı bir uşağın halına bənzəyir. Bu uşağın atası vəfat etmiş və oğlu üçün böyük sərvət, var-dövlət tərk etmişdi. Lakin uşaq var-dövləti necə xərcləyəcəyini, necə mənfəət əldə edəcəyini və həyatını necə xoşbəxt quracağını bilmir. Uşağın məharətsizliyi və israfı

üzündən sərvət, var-dövlət tədricən azalacaq və nəticədə uşaq, heç bir ləyaqəti, mənliyi olmayan yoxsul insana çevriləcəkdir. Ona görə də hər hansı ümmət olursa-olsun, həyat yolunda addımlamaq üçün müəyyən ideologiya və xüsusi proqramlara möhtacdır. Müəyyən ideologiya və proqramlara malik olmayan ümmət isə cəhalət boşluğunda və azğınlıqda olacaqdır. Belə ideologiya və proqramların ümmətin öz tarixindən və reallığından olması şərtdir. Çünki, ümmət öz tarix və gerçəkliyindən faydalanmalıdır ki, gücünü, qüdrətini, qabiliyyətini aşkara çıxarmağa qadir olsun. Bu isə, ümmətin hərəkətə gəlib addımlaması deməkdir. Ancaq bu ideologiya və proqramlar ümmətin tarixindən, yaşadığı reallıqdan fərqli olan başqa bir millət və ya cəmiyyətdən götürülərsə, ümmətin geriləməsinə səbəb olacaqdır.

Əgər bir şəxs gözünün ölçüsünə uyğun gəlməyən eynəkdən istifadə edərsə, görəsən halı necə olar? Belə şəxsin baxışı şübhəsiz ki, qatışıq olacaqdır. Əşyaları tərsinə, yaxud böyük və yaxud kiçik görəcəkdir. Ola bilər ki, biri iki və ya daha çox görsün. Bütün bunlardan da xətərlisi odur ki, belə şəxsin gözü zəifliyə və xəstəliyə məruz qalacaqdır. Elə deyilmi?

Əgər ümmət öz reallığına zidd olan proqramdan istifadə edərsə, eyni nəticə onun da başına gələcəkdir və belə təqdirdə ümmətin həyata baxışı qatışıq, səhv və qeyri-dəqiq olacaqdır. Bu da, ümmətin yalnız bu yöndə geridə qalmasına deyil, habelə ümmətin qüvvətlənməsi üçün lazım olan amillərin darmadağın olub, taqətinin tükənməsinə səbəb olacaqdır. İslam ümmətinin geridə qalmasının başlıca səbəbi də, məhz budur.

Son zamanlarda ümmətin yeni nəsilləri özünə gəlib, həyatının və gerçəkliyinin pis vəziyyətdə olduğunu dərk etdi, digər xalqların həyata keçirdikləri gözqamaşdırıcı tərəqqini gördü və ayaqları altında yatıb qalmış böyük sərvətləri kəşf etdi. Belə təqdirdə, ümmət böyük sərvətlərdən istifadə etmək üçün, geriliyindən xilas olmaq üçün, sənaye, inkişaf və tərəqqi yoluna yetişmək üçün əməli bir proqramın labüdlüyünə olan ehtiyacını hiss etdi.

Təbii ki, geridə qalmış dövlətlərin sivilizasiya və tərəqqi yolunu kəşf etmələri böyük istismarçı dövlətləri sevindirmir. Əksinə, istismarçı dövlətlər geridə qalmış dövlətlərin yolunda əngəl törətməyə, maneələr yaratmağa və yoluna tikan toxumları səpməyə çalışır ki, geridə qalmış dövlətlər hər zaman onlara möhtac olsunlar. Buradan da istismarçı dövlətlər bunu qiymətsiz fürsət bildi.

Ümmətin yeni nəsilləri öz həyatları üçün proqram axtarırlar ki, bu proqram vasitəsilə gələcəklərini qura bilsinlər. Görəsən, nəyə görə istismar, qeyd olunan fürsətdən istifadə edib, özünün məsləhət və istəklərinə uyğun bir gələcək üçün bu yeni nəsillərə ideologiya və proqramlar vermir? Bu hal, nəhayət, baş verdi.

İstismarçı dövlətlər böyük informasiya vasitələri , universitet və institutlar vasitəsilə, insanı yoldan azdıran hiyləgər üslublarla ümmətin yeni yaranan nəsillərinə, bu ümmətin prinsplərinə zidd olan, gerçəkliyi ilə uzlaşmayan, müxtəlif ideologiya və proqramları təqdim etməyə nail oldu. Bu da ümmətin sıralarında ziddiyyət və ayrılıq yaradaraq, ümmətin baxışını həyəcanlı və iztirablı etdi. Lakin nəyə görə bu hal baş verdi?

Görəsən, İslam ümmətinin özünün proqramları və sivil ideologiyaları yoxdurmu ki, ümmətin övladları başqalarının fikir və proqramlarına möhtac olsunlar? Yoxsa bu, başqa bir səbəb üzündəndir?

Həqiqətdə, İslam ümmətinin ən üstün təməl və ən böyük irsə malik olduğunu tarix boyu bütün bəşəriyyət bilmişdir. İslam təlimi və İslam irsi həyatın bütün sahələrini əhatə edən ən geniş və ən üstün proqramlarla zəngindir. Bu irsin böyüklüyü, zənginliyi və həyatın bütün sahələrini əhatə etməsi insanı dəhşətə gətirir. Əgər biz, böyük irsimizin ərazisinə elmi səyahətə çıxsaq, orada həyatın bütün sahələrində lazım olan proqramı tapa bilərik. Yalnız İslam mənbəli kitablardan biri olan "Vəssail-əş-şiə" adlı kitabda ər-arvad münasibətləri haqqında 4028 hədis, yeyib-içmə qaydaları haqqında 2429 hədis, üzgüçülük və bədən təmizliyi haqqında 464 hədis, dişlərin təmizlənməsi haqqında 82 hədis, libas və geyim haqqında 744 hədis, ticarət haqqında 2032 hədis və həmçinin həyatın müxtəlif sahələrinə aid olan hədislər təfsilatı ilə qeyd olunmuşdur. Lakin bu böyük irs bir sıra problemlər səbəbindən yeni əsrdəki ümmətin tələblərinə cavab verə bilmir. Ona görə də ümmətin yeni nəsilləri, bu zəngin irsin nemətindən məhrumdur. Görəsən, bu hansı problemlərdir?

1.İslam irsi üslubu və formalaşma baxımından onun meydana çıxdığı zaman və məkanla sıx bağlıdır. Buna görədə bu irsin hər bir əsrə və onun təlabatına cavab verəcək şəkildə formalaşdırmağa ehtiyac duylur. Hal-hazırkı əsrdə isə bu, irsimiz üçün həyata keçirilməyibdir.

2.İnformasiya və nəşr sahəsində də irsimiz təsəvvürolunmaz yoxsulluğa məruz qalmışdır.

3.Bəzi tayfa təəssübkeşliyi və siyasi meyllər hələ də bu irsdən lazımı qədər istifadə etməyə mane olur.

Biz İslam irsinə qayıtmayınca, onu elmi surətdə öyrənməyincə, ondan həyatda ehtiyaclı olduğumuz proqramları əldə etməyincə, yeni nəsillərimiz yaranmış boşluğu doldurmaq üçün başqalarının fikirlərinə ehtiyac duyulduğunu hiss edəcək və beləliklə istismarçı dövlətlər ağılımıza və zehinlərimizə hakim kəsilmələri üçün əlverişli fürsət əldə edəcəkdir. İmam Əmirəlmöminin Əli ibn Əbu Talib(ə)-ın kəlamlarını, məktublarını və xütbələrini ehtiva edən "Nəhcul-bəlağə" kitabı İslam irsinin önündə yer tutur. "Nəhcül-bəlağə"nin bir çox şərhçilər və tarixçilər tərəfindən tədqiq edilməsinə baxmayaraq, hələ də bu kitabın daha dolğun və obyektiv öyrənilməsinə ehtiyac vardır. "Nəhcül-bəlağə" ümmətin yeni nəsilləri arasında yaranmış böyük təhlükəli boşluğu təmin etmək, ümməti sivilizasiya və tərəqqi yoluna aparmaq üçün kamil ideologiya və müfəssəl proqramları özündə əks etdirir. Sizə təqdim olunan bu kitab (1977-ci ildə) bir qrupp gənclərə və ziyalılara «Nəhcül-bəlağə»nin elmi və obyektiv araşdırılması mövzusunda söylədiyim mühazirələrin toplusudur.

*HƏSƏN SƏFFAR*

## İMAM ƏLİ(ə) VƏ «NƏHCÜL-BƏLAĞƏ»

İmam Əli(ə) buyurub: *"Ey insanlar! Peyğəmbərlərin öz ümmətləri üçün etdikləri nəsihətləri mən də sizin aranızda yaydım, övsiyaların özlərindən sonra gələnlər üçün yerinə yetirdiklərini, mən də sizin üçün yerinə yetirdim, sizi öz qamçımla ədəbləndirdim, lakin düzəlmədiniz, sizi dəvələri qovmaq üçün oxunan mahnıtək qadağalarla çəkindirdim, lakin istiqamətlənmədiniz, doğru yola yönəlmədiniz.*

*Sizi Allaha and verirəm... Belə hesab edirsiniz ki, məndən qeyrisi sizi düzgün yola irşad edəcəkdir?"*[1]

"Nəhcül-bəlağə"dəki mövzuları öyrənməzdən əvvəl, İmam Əli(ə)-ın həyatına nəzər salmaq doğru olardı.

İmam Əli(ə)-ın tarixi həyatı, yəni anadan olması, fəziləti,kəramətləri, döyüşləri və ölümü, haqda çox bəhs edilib. Lakin İmam Əli(ə)-ın dini mübarizə sahəsindəki fəaliyyətinə gəldikdə isə çox az məlumata malikik. Gənc illərindən ömrünün sonuna kimi İmamın həyatında izlənməli olan ən bariz cizgilər hansılar olmuşdur?

## İMAM GƏNC OLARKƏN

İmam Əli(ə)-ın gənclik mərhələsində həyatının ən mühüm xüsusiyyətləri:

1."Təəssübkeş olmaması".Mən bununla İmam Əli(ə)-ın yeni rəy və fikri qəbul etməkdə dözümlülüyünü, cəmiyyət və ailədəki ədət-ənənələrə baxmayaraq, əməli şəkildə dəyişiklik, yenilik etməyə çalışmasını nəzərdə tuturam. Nə qədər ki, yeni rəy və fikir haqdır, onu qəbul edərək yoluna əməl etməyə tələsmək vacibdir. Bu hal, yəni İmam Əli(ə)-ın tez bir zamanda İslamı qəbul etməsi

---

[1] "Nəhcul-bəlağə", 182-ci xütbə

və Peyğəmbər(s)-in ilkin çağırışı ilə İslam yoluna gecikmədən çalışması diqqətəlayiqdir. Bu səbəbdən alimlər İmam Əli(ə)-ı digərlərindən fərqləndirən ən bariz xüsusiyyət kimi, o Həzrətin İslamı hamıdan əvvəl qəbul etməsi və Peyğəmbər(s)-lə birgə namaz qılmasını səhih hədislərlə qeyd etmişlər. İmam Hafiz Nisai (hicrətin 303-cü ili vəfat etmişdir) "Xəsaisu əmirilmumininə Əli ibn əbu Talib" adlı kitabının birinci fəslində qeyd olunan xüsusiyyət haqqında müxtəlif yollarla bir neçə hədis nəql etmişdir. Salman Farsi Peyğəmbər(s)-in belə buyurduğunu nəql edir: *"Sizlərdən (Cənnətə) mənim yanıma, gələcək ilk şəxs, sizlərin hamınızdan əvvəl İslamı qəbul etmiş Əli ibn əbu Talibdir".*[2]

Əbu Zər Ğifari bu haqda belə deyir: *"Peyğəmbər(s)-i Əlinin əlindən tutub: –Sən mənə iman gətirən ilk şəxssən və Qiyamət günü də mənim əlimi sıxan ilk şəxs sən olacaqsan",* –deyə buyurduğunu eşitdim[3]

Cabir ibn Abdullah əl-Ənsari isə belə deyir: *"Həzrət Məhəmməd(s)-ə bazar ertəsi peyğəmbərlik verildi, Əli çərşənbə axşamı ona iman gətirdi".*[4]

*"Ey Əli, sən Məhəmmədə iman gətirdiyin zaman atanla məsləhətləşdinmi?" –deyə soruşulduqda, o Həzrət belə cavab vermişdir: "Allah məni yaratdığı zaman atamla məsləhətləşmişdimi?"*[5]

2."Məqsəd". İmam Əli(ə) hal hazırda əksər gənclərimizin kimi öz şəxsi gələcəyi üçün təhsilini tamamlaması, yaxşı vəzifəyə nail olması, gözəl həyat

---

[2] Məhəmməd Baqir Məclisi, "Bihar-ul-ənvar" , c.38, səh.280, Beyrut –1983

[3] "Biharul ənvar"

[4] "Biharul ənvar"

[5] Hadi-əl-Müdərrisi, "Zalikum əl-İmam Əli", səh.45, Beyrut –1978

yoldaşı və rahat mənzilə sahib olması haqda fikirləşmirdi.

İmam Əli(ə), yalnız dinin gələcəyini və ümmətin vəziyyətini fikirləşirdi. Onun məqsədi, amalı çox ali idi. Həzrətin məqsədi Allahın razılığını və savabını qazanmaqla, dünyanı xoşbəxtlik və irəliyə, inkişafa doğru aparacaq ikinci bir şəxs olmaq idi. İslami çağırışın əvvəlində Allah-təala Məhəmməd(s)-ə belə buyurur: "Ən yaxın qohumlarını xəbərdar et!"[6]

Peyğəmbər(s) bəni Əbdul-Müttəlib tayfasını çağırır. Bəni Əbdul-Müttəlib tayfası o günlərdə 40 nəfər kişidən ibarət idi. Peyğəmbər(s) onlara yemək təqdim etdikdən sonra belə buyurdu:

*"Ey bəni Əbdul-Müttəlib! Mən hər şeyə qadir və böyük Allah tərəfindən sizin üçün xəbərdar edən və müjdəçi göndərilmişəm. İslamı qəbul edin və mənə itaət edin ki, hidayət olasınız".*

*Daha sonra davam edərək dedi: "Kim mənimlə qardaş, mənə yardımçı, mənim vəlim, vəsim və məndən sonra ailəmdə xəlifəm olmaq istəyir?" Hamı sakit dayanmışdı. Peyğəmbər(s) dediklərini üç dəfə təkrar etdi. Hər dəfə də hamı susur, Əli(ə) isə "mən" deyə cavab verirdi.*

*Sonda peyğəmbər: –Bəli bu Sənsən! –deyə buyurdu."*[7]

3."**Özünə inam**". İmam Əli(ə) azyaşlı olmasına və insanın yaşına, zahiri görünüşünə böyük qiymət verən bir cəmiyyətdə yaşamasına baxmayaraq, bu maneəni keçə bildi və insanın yaşına və zahiri görünüşünə böyük qiymət verən cahiliyyət qanununa qarşı "özünə inam"

---

[6] "Əş-şüəra" surəsi, 214-cü ayə

[7] Təbərsi, "Məcmə-ul-bəyan fi təfsir-il-Quran", c.19, səh.188

hissi ilə dayana bildi. Məsələn, Xəndək döyüşündə bəni Amir ibn Luey tayfasından olan məşhur cəngavər Əmr ibn əbdu Vəd meydana çıxdıqda, hamı onunla mübarizə aparmaqdan qorxurdu.

*"Peyğəmbər(s) səhabələrinə müraciət edərək buyurdu: –Sizlərdən hansınız Əmrlə mübarizəyə qalxar?*

*Əli(ə) ayağa qalxıb dedi: –Mən, ey Allahın rəsulu.*

*Peyğəmbər(s) Əli(ə)-a dedi: –O Əmrdir.*

*Əli(ə) isə belə cavab verir: –Mən isə Əliyəm".*[8]

## İMAM QOCALIQ DÖVRÜNDƏ

Peyğəmbər(s)-in vəfatından sonra ümmət İmam Əli(ə) tərəfindən idarə olunmalı idi. Çünki Peyğəmbər(s) hələ sağlığında Qədir Xuma kimi müxtəlif yerlərdə İmam Əli(ə)-ı özündən sonra ümmətin xəlifəsi və İmamı təyin etmişdi. O Həzrət Peyğəmbər(s)-in dəfn mərasimi ilə bağlı işlərlə məşğul olduğu bir vaxtda bəni Saidə qəbiləsinin eyvanında digər bir şəxsə beyət edildi. İmam Əli(ə) bu beyətlə razılaşmadı və bu beyətdən imtina etdi. Lakin sonralar İmam Əli(ə) gördü ki, xilafətdə olan haqqını tələb etməsi, ümmətin parçalanması və İslama düşmənçilik edən qüvvələrin güclənməsi üçün zəmin yaradır. Bu səbəbdən də İmam Əli(ə) dinin mənafeyinə xatir öz haqqından keçdi və müsəlmanların öz müqəddəratlarını həvalə etdikləri şəxsə beyət etdi. İmam Əli(ə) buyurur:

*"...Doğrudan da, nöqsan sifətlərdən münəzzəh olan Allah, Məhəmmədi (Allahın salamı ona və əhli-beytinə olsun) aləmlərə xəbərdaredici, peyğəmbərlərə*

---

[8] Məhəmməd Kazim əl-Qəzvini, "Əli min əl-məhdi ila əl-ləhdi", səh.127, Beyrut –1982

*şahid kimi göndərdi. O, köçdükdən sonra müsəlmanlar xilafət barəsində ayrılığa düşdülər, bir-birilə çəkişməyə başladılar. And olsun Allaha, heç ağlıma da gətirməzdim ki, Peyğəmbərdən sonra ərəblər bu işi əhli-beytindən alıb, mənim xəlifəliyimə mane olacaq. Bir də baxıb gördüm ki, xalq filan adama beyət edir. Əlimi çəkdim. Axırda insanların dindən döndüklərini, Məhəmmədin (Allahın salamı ona və əhli-beytinə olsun) dinini batil etməyə qalxdıqlarını, xalqı buna çağırdıqlarını görənədək dözdüm. İslama və müsəlmanlara yardım göstərməsəm, onda elə bir yarıq açılacağını, yaxud onun yıxılacağını görməkdən qorxdum. Bu müsibət isə, mənim üçün sizə əmirlik etməkdən və az bir vaxt sürüb, sonra ilğım kimi itib gedəcək, yaxud bulud kimi dağılacaq xilafəti itirməyimdən daha üstün olardı".*[9]

Bəziləri: "Xilafət sənin qanuni haqqındır", –deyə İmam Əli(ə)-ı xilafətə sahib çıxmağa təhrik etməyə çalışmış, lakin İmam dərin düşüncəli və ümumi mənafeyi qorumaqda səmimi olduğu üçün buna razı olmaqdan çox uca idi.

İbn Əsir öz tarixində belə nəql edir ki, Əbu Süfyan - *"Mən elə bir inad görürəm ki, o inadı, yalnız qan sakitləşdirə bilər..."-deyərək* Əli(ə)- ın yanına gəlib belə dedi:

*"Əlini uzat, sənə beyət edim. Allaha and olsun, əgər istəsən buranı atlılar və döyüşçülərlə dolduraram".*

Əli(ə) bu təklifi rədd edərək Əbu Süfyana belə demişdir: *"Allaha and olsun ki, sən bununla, yalnız fitnə salmaq istəyirsən. Allaha and olsun ki, sən uzun müddət*

---

[9] "Nəhcul-bəlağə" kitabı, 62-ci xütbə

*İslama zərər vermək istəmisən və bizim sənin nəsihətinə heç bir ehtiyacımız yoxdur".*[10]

İmam Əli(ə) üç xəlifə: Əbu Bəkr, Ömər və Osmanın yanında olmuş, onlara nəsihət vermiş, yol göstərmiş, istiqamətləndirmişdi. Belə ki, bu üç xəlifə çətin məsələlərdə, mühüm problemlərdə İmam Əli(ə)-a müraciət etmiş və o Həzrətdə dərin elm, düzgün rəy, qiymətli həll olduğunu görmüşlər.

Xülasə, İmam Əli(ə) öz nəfsinə aludə olmamış, meydanı tərk etməmiş, xəlifələrə yardım əlini uzatmaqla xilafətdə olan haqqının intiqamını almaq istəməmişdi.

## SONUNCU PİLLƏ

Qocalıq İmam Əli(ə)-ın cisminə hakim kəsildikdən və ümmətdə baş vermiş müəyyn hadisələrdən sonra İmama ümmətin rəhbərliyi üçün fürsət verildi. Böyük müsibət və problemlərlə üzləşəcəyinə baxmayaraq, İmam Əli(ə) İslam hökmlərini və İslamın prinsiplərini möhkəmlətməklə qısa müddətli xilafəti dövründə nümunəvi hakim üçün ən ali örnək oldu. O həzrət vəzifəpərəstlik yolunu seçmiş Allah düşmənləri ilə qarşılıqlı razılaşmanı rədd etmişdi. Belə ki, İmam Əli(ə) ictimai ədalətin ən gözəl surətlərini tətbiq etməklə, dosta yüksək,kənar şəxsə isə aşağı nəzərlə yanaşmamışdır.

## «NƏHCÜL-BƏLAĞƏ» HAQQINDA NƏ DEMƏK OLAR?

Qeyd edilənlər İmam Əli(ə)-ın həyatına qısaca baxış idi. İndi isə "Nəhcul-bəlağə" haqqında nə demək olar?

---

[10] İbn Əsir, "Əl-kamil fit-tarix", c.2, səh.326, Beyrut–1979

İmam Əli(ə) sadəcə olaraq qərarlar çıxaran və xalqdan bu qərarların tətbiqini tələb edən hakim olmamışdır. O, risalət və prinsip sahibi idi. İmam Əli(ə)-ı, əsasən, xalqın onun risalətini dərk etməsi və prinsiplərini anlaması maraqlandırırdı. Bu səbəbdən də, o həzrət, xalqı xütbələr, məktublar, vəsiyyətlər və təlimlər yolu ilə istiqamətləndirməyə başladı. Hətta hakimiyyətin müxtəlif yerlərində çalışan valiləri və alimləri öz tərbiyəvi nəsihətləri ilə qidalandırırdı ki, onlar da öz növbələrində rəhbərlik vəzifələrini yaxşı surətdə yerinə yetirsinlər. Bütün bu nəsihət və təlimlər də İmam Əli(ə)-ın ümmət üçün qoyub getdiyi böyük sərvətdir.

İmam Əli(ə)-dan sonra gələn hakimiyyət bu sərvəti məhv etməyə, yayılmasının qarşısını almağa səy göstərməsinə baxmayaraq, bu sərvətin böyük bir hissəsi çətinlikləri adlayaraq, ümmətin yeni nəsillərinə dağınıq formada olsa da gəlib çatdı. Hicrətin 4-cü əsrinin axırlarında Şərif-ər-Rəzi bu sərvəti cəm etmək və bu mirası qorumaq qərarına gəldi. Lakin Şərif ər-Rəzi ədib olduğu üçün kəlmələrin bəlağətli və ədəbi hissəsinə böyük diqqət etmiş, ictimai və fikri qiymətə malik digər sahələrə isə bir o qədər də ciddi yanaşmamışdır. Şərif-ər-Rəzi "Nəhcul-bəlağə"nin müqəddiməsində deyir: **"Bu kitabda seçdiyim fəsillərin ardıcıl olmaması və kəlamların gözəlliyində nizam-intizamsızlığın olması mümkündür. Çünki mən bu kitabda müdrik ifadə etməni və gözəlliyi qeyd edirəm. Ardıcıllıq və düzümü nəzərdə tutmuram".**

Şərif ər-Rəzinin bu kitabı, "Nəhcul-bəlağə", yəni "bəlağətin üslubu" kimi adlandırmasından onun bəlağət və ədəbə olan meyli hiss edilir. Belə ki, İmam Əli(ə)-ın kəlamlarından canlılıq duyulduğundan çağırış, mübarizə, döyüş çeşmələndiyi üçün, kitabı "Nəhc-ul-həyat" yəni

"həyatın, yaşayışın metodu", "nəhc-ul-nidal" yəni "mübarizənin metodu", "nəhc-ul-cihad" yəni "cihadın metodu" kimi adlandırmaq mümkün olduğu bir vaxtda Şərif ər-Rəzi bəlağətə olan meylinə görə bu kitabı "Nəhcul-bəlağə" adlandırıb. Ancaq bəlağətdən məqsəd yalnız İmamın xütbələri və kəlamları olmayıb. Məqsəd İmamın kəlamdakı səliqəsidir. İmam Əli(ə)-ın kəlamlarındakı əsas hədəf isə yaşayış təlimləri, din və mübarizə olmuşdur. Bu səbəbdən də Şərif- ər-Rəzi İmamın bəzi xütbələrindəki və məktublarındakı hissələri tərk etmişdir. Buna görə, əksər hallarda "İmam Əli(ə)-ın xütbəsindən", yaxud "İmam Əli(ə)-ın məktubundan" kimi yazır. Bütün bunlara baxmayaraq, Şərif-ər-Rəzi iddia etmir ki, o, İmam Əli(ə)-ın bütün bəlağətli kəlamlarını qeyd etmişdir. O, açıq-aşkar bildirişmişdir ki, kitabdakı hər bir fəslin sonunda sonradan tapacaqlarını qeyd etmək üçün boş vərəqlər saxlamışdır. O, belə demişdir: **"Nəhcul-bəlağənin hər bir bölümünü fəsillərə ayırdım və hər bir fəslin sonunda boş vərəqlər saxladım ki, nəzərimdən yayınan, sonradan isə aşkar edə biləcəyim kəlamlar üçün bu boş vərəqlər müqəddimə olsun".**

Şərif ər-Rəzi əmirəlmöminin Əli ibn əbu Talib (ə)-ın nəslindəndir. Onun tam adı: Məhəmməd ibn Hüseyn ibn Musa ibn İbrahim ibn əl-İmam Musa Kazım(ə)-dır. Hicrətin 359-cu ili anadan olmuş, 406-cı ildə isə Bağdadda vəfat etmişdir. O, misli görünməmiş alim idi. Dərin elmi, geniş dünya görüşü vardı. Tələbələrin başçısı, seyyidlərin ağası, həcc mərasimlərinə və beytul-mala başçılıq edirdi.

"Həqaiq ət-təvil", "Təlxis əl-bəyan fi-məcazat əl-Quran", "Məcazat əl-asar ən-nəbəviyyə", "Xəsaisul-əimmə" və digər qiymətli kitabları Şərifər-Rəzinin yüksək

müstəvasını kəşf edir. Hicrətin 386-cı ilindən etibarən 400-cü ilədək, 16 illik müddət ərzində "Nəhcul-bəlağə"nin içindəkiləri cəm etmişdir. Son vaxtlarda isə İslam alimlərindən biri əllamə, mühəqqiq Şeyx Məhəmməd Baqir əl-Mahmudi böyük zəhmət sərf edərək, İmam Əli(ə)-ın digər kəlamlarını da "Nəhcus-səadə fi mustədrək Nəhcil-bəlağə" adlı kitabında toplamışdir. Beyrutda çap edilmiş bu kitab yeddi cilddən ibarətdir. Kitabın səhifələrinin sayı 3000 səhifədir. Kitabın cəm edilməsi və tərtiblənməsinə 15 il vaxt sərf edilmişdir.

"Nəhcul-bəlağə" kitabı böyük əhəmiyyət kəsb etdiyi üçün ümmətin alimləri və mütəfəkkirləri bu vaxta qədər "Nəhcul-bəlağə"yə 150-dən artıq şərh yazmışlar. Yazılmış şərhlər də, öz növbəsində ümmətin böyük alimlərindən hesab edilən, hicrətin 1323-cü ilində vəfat etmiş Misir müftisi Məhəmməd Əbduh, əllamə Şeyx Əbdul-Həmid Muhyəddin, Seyyid Əbdul-Əziz, doktor Şeyx Sübhi-əs-Saleh kimi şəxsiyyətlər tərəfindən təhqiq edilmişdir. Sonda məsihi ədibi Corc Cordak da bu kitabı təhqiq etmiş və təhqiqatı üzərində geniş, ədəbi yoxlanış apardıqdan sonra "Nəhcul-bəlağə"dən seçdiklərini "Rəvaiu Nəhcil-bəlağə" adı ilə çap etmişdir.

## "NƏHCÜL-BƏLAĞƏ"NİN ƏHƏMİYYƏTİ

"Nəhcül-bəlağə"dən yalnız insanı zahidliyə sövq edən kəlamlar, nəsihətamiz xütbələr, ölüm və axirəti insana xatırladan sözlər eşitmişik. Bütün bunları isə əza məclislərində, meyyid üçün verilən fatihə məclislərində dinlənildiyi üçün, əksər gənclər "Nəhcül-bəlağə"ni fatihə məclisləri və bu məclislərdə deyilən nəsihətlər üçün yararlı olduğunu hesab edirlər.

Həqiqətdə isə, "Nəhcul-bəlağə" ümmətin nəhəng mirası, böyük sərvətidir və o, öz əhəmiyyətini aşağıda qeyd ediləcək sahələrdə göstərir:

1."Nəhcül-bəlağə" Həyatın bütün sahələrində İslam nöqteyi-nəzərini öyrənmək üçün əhəmiyyətli mənbə kitabıdır. Orada əxlaq qaydalarından tutmuş hərb qanunlarına kimi, idarə etmə və siyasət təlimlərindən tutmuş ictimai və iqtisadi nəzəriyyələrə kimi hər şey var.

2."Nəhcül-bəlağə" İslam tarixinin hadisələrini bizim üçün düzgün əks etdirən bir güzgüdür. "Nəhcul-bəlağə" müəyyən bir hadisələrin məcrasında iştirak etmiş və bu hadisələr içində yaşamış bir şəxsin xatirələri kimidir.

3."Nəhcul-bəlağə" ədəbi sərvətlə yanaşı, bəlağət və yüksək zövq baxımından o qədər zəngindir ki, ona: **"Allahın kəlamından aşağı, bəndənin kəlamından yuxarı"**, –deyirlər.

## QƏRƏZLİ HÜCUM

Son zamanlar "Nəhcul-bəlağə"yə qərəzli hücumlar olunur və onun qiymətini nəzərdən salmaq məqsədi güdülür. 1975-ci ilin may ayında Misirdə nəşr olunan «Əl-Katib» adlı jurnalda ustad Mahmud Məhəmməd Şakir öz məqaləsi ilə "Nəhcul-bəlağə"yə hücum etmiş və iddia etmişdir ki, bu kitab İmam Əli(ə)-ın adına qondarılıb.

Bu məqalədən az müddət sonra 1975-ci ilin dekabr ayında yenə Misirdə nəşr olunan "Əl-hilal" jurnalı doktor Şəfi Seyyidin eyni qərəzli məqaləsini dərc etmişdir. Həmçinin, Kuveytin "Əl-ərəbi" jurnalında 1975-ci ilin fevral ayında doktor Məhəmməd Dəssuqi deyilənləri dəstəkləyən bir məqalə ilə çıxış etmişdir.

İslam ümmətini əsil irsimiz olan "Nəhcül-bəlağə"yə müraciət etməyin labüdlüyünü hiss etdiyi bir vaxtda, son zamanlar aşkara çıxmış belə hücumlar hansı hədəfi güdür? Görəsən, ümməti bu zəngin irsdən yararlanmağı qadağan etmək istəyirlər, yoxsa ümməti sabit və düzlüyündə şəkk-şübhə olmayan bir şey haqqında mübahisə və münaqişəyə təhrik etmək istəyirlər?

Hal-hazırda maraq doğuran əsas məsələ "Nəhcul-bəlağə"yə edilən bəzi etirazları həll etməkdən ibarətdir:

Birinci şübhə; "Nəhcul-bəlağə" İmam Əli(ə)-ın kəlamlarından deyil, Şərif ər-Rəzinin qondarmasıdır.

Şərif ər-Rəzinin anadan olmasından əvvəl tarix və ədəb kitablarına müraciət edilən zaman bu iradın əhəmiyyətsiz olduğu aydın olur. Belə ki, bu kitablar "Nəhcul-bəlağə"nin əksər xütbələrini, məktublarını, kəlamlarını özündə əks etdirir. Həmçinin, Şərif ər-Rəzi də "Nəhcul-bəlağə"ni cəm edərkən, məhz bu mənbələrə etimad etmişdir. Misal olaraq bəzi tarixi faktları diqqətinizə çatdırırıq:

–Hicrətin 255-ci ilində vəfat etmiş Cahiz "Əl-bəyan və ət-tibyan" adlı kitabında "Nəhcul-bəlağə"nin bəzi xütbələrini qeyd etmişdir.

–Hicrətin 202-ci ilində vəfat etmiş Nəsr ibn Məzahim də "Siffeyn" kitabında "Nəhcul-bəlağə"nin bəzi xütbələrini qeyd etmişdir.

–Hicrətin 310-cu ilində vəfat etmiş Təbəri də öz «Tarix» kitabında qeyd etmişdir.

–Hicrətin 356-cı ilində vəfat etmiş İsfahani də "Əl-əğani" kitabında qeyd etmişdir.

Maraqlıdır, Şərif ər-Rəzi dünyaya gəlməmişdən əvvəl bir neçə alimin öz kitablarında qeyd etdiklərini o, sonradan necə qondara bilər? Sonda əllamə Seyyid Əbdu-

Zəhra əl-Hüseyni "Nəhcul-bəlağə"yə şərh yazmış və orada hər xütbənin, hər məktubun, hər kəlamın sənəd və mənbə baxımından düzgünlüyünü sübut etmişdir. Həmçinin, "Nəhcul-bəlağə"dən əvvəl yazılmış tarix və ədəb kitablarındakı etibarlı mənbələrə əsaslanaraq "Nəhcul-bəlağə"dəkilərin İmam Əli(ə)-a mənsub olduğunu təhqiq etmişdir. Təqribən 1870 səhifədən ibarət olan bu kitab "Məsadiru Nəhcil-bəlağə və əsaniduhu" adı ilə dörd cilddə nəşr edilmişdir.

**İkinci şübhə;** "Nəhcül-bəlağə"də bəzi səhabələr haqqında elə xütbələr vardır ki, bu sözlərin İmam Əli(ə) tərəfindən deyilməsi mümkün deyildir. Bu şübhəyə belə cavab açıqlanır ki, İmam Əli(ə) ölçü və meyarı şəxslərdə deyil, prinsiplərdə hesab edən İslamdininə bağlı bir şəxs idi. Bu səbəbdən hər hansı şəxs əgər İslamın prinsiplərinə əməl edirsə, o, müqəddəs hesab edilir və ehtirama layiqdir. Peyğəmbər(s)-dən sonra, hətta, XX əsrdə yaşayan qul olsa belə, bunun müqabilində Peyğəmbər(s)-lə, hətta, bir evdə yaşasa belə, hər hansı bir şəxs, İslamın prinsiplərinə müxalif olarsa və bu prinsiplərdən yan keçərsə, onu pisləmək vacib olur. Çünki: *"Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinənizdir)".*[11]

Qurani-Kərim də Nuh Peyğəmbərin və Lut Peyğəmbərin həyat yoldaşını pislənmişdir.

*"Allah kafirlərə Nuhun yoldaşı ilə Lutun yoldaşını məsəl çəkir. Onlar bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər və (Nuhla Lut) onları Allahdan (Allahın əzabından) heç*

---

[11] "əl-Hücurat" surəsi, ayə 13.

*vəchlə qurtara bilmədilər. Onlara: Başqaları ilə birlikdə siz ikiniz də Cəhənnəmə girin! –deyildi".*[12]

Üçüncü şübhə; –"Nəhcul-bəlağə"də qeybdən xəbər verən xütbələr vardır. Biz isə etiqad edirik ki, qeybi yalnız Allah bilir. Bu şübhəni aradan qaldırmaq üçün "Nəhcul-bəlağə"ni oxumaq kifayətdir;

Bəni Kəlb qəbiləsindən bir kişi İmam Əli(ə)-ın qeybdən danışdığını eşidir və deyir: "Ey əmirəlmöminin, sənə qeybin elmi verilmişdir".

İmam Əli(ə) gülür və deyir: "Ey Kəlb qəbiləsindən olan qardaş, dediklərim qeyb elmi deyil. Bu, yalnız çox elmli bir kəsin mənə öyrətdiklərindəndir. Bu elmi Allah öz Peyğəmbərinə, o isə öz növbəsində mənə öyrətmiş və dua etmişdir ki, mənim qəlbim bu elmi anlasın və bütün bədənim bu elmi əhatə etsin".[13]

Görəsən, Allahın öz Peyğəmbərinə qeybdən xəbər verməsində bir maneə varmı? Quranda deyilir:

*"Bu, sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir".*[14]

Bütün bunlardan sonra Peyğəmbər(s)-in öz xəlifəsinə qeybdən bəzi xəbərləri verməsində bir maneə varmı?

## "NƏHCUL-BƏLAĞƏ"DƏ İCTİMAİ ƏDALƏT

İmam Əli(ə)- Malik Əştərə tövsiyə edərək buyurmuşdur:

**"Allaha qarşı insaflı ol, insanlarla, əhli-əyalınla, adamlarından buyuruğuna qulaq asanlarla da insafla rəftar et. Belə etməsən, bil ki, zülmkar olacaqsan. Allah bəndələrinə zülm edənin düşməni isə Allahdır. Allahla**

[12] "ət-Təhrim" surəsi, 10-cu ayə,
[13] "Nəhcül-bəlağə", 128-ci xütbə,
[14] "Yusif" surəsi, 102-ci ayə.

düşmənçiliyə girişənin dəlilini Allah batil edər. Zülmdən əl çəkib tövbə edənə qədər isə o adam Allahla vuruşmuş olar. Allahın nemətlərini pozan, zail edən, əzabının tezcə gəlib çatmasına səbəb olan şeylər arasında zülmdən daha güclüsü yoxdur. Çünki Allah məzlumların dualarını eşidər, zalımlara isə, vaxtı çatanda əzabını göndərər".[15]

## KAİNATDA MÖVCUD OLAN ƏDALƏT

İnsan kainatın gedişatına və həyatın nizamına elmi mülahizə etdiyi zaman kainatın materiyası və həyatın əsaslarının çox dəqiq tarazlıq halında yaşamasını kəşf edir. Allah-təala hər bir əsas və materiya üçün müəyyən hüdud təyin etmişdir. Əgər materiyanın onun üçün cızılmış hüdudu aşma ehtimalı fərz olunarsa, bu, həyatın gedişatında xarabalığın və dağıntı hadisələrinin baş verməsi deməк olacaqdır. Məsələn:

1.Allah tərəfindən dəqiq ölçülərlə məhdudlaşdırılmış yer kürəsinin həcmi onun üzərində yaşayanların mənfəəti ilə ziddiyyət təşkil etmir. Əgər yer kürəsinin həcminin genişlənməsi və artması fərz olunarsa, nəticə özünü bu kürədəki həyatda göstərəcəkdir. Belə ki, yer kürəsinin cazibə qüvvəsi artaraq, yer üzərindəki hərəkəti və fəaliyyəti çətinləşdirəcəkdir.

Bu halın əks formasını fərz edək. Əgər yer kürəsinin həcmi kiçildilsə, nəticə yenə də özünü bu kürədəki həyatda göstərəcəkdir. Belə ki, yer kürəsindəki cazibə qüvvəsi azalacaqdır. Bu isə öz növbəsində yer üzərindəki hava qıtlığına və suların buxarlanmasına səbəb olacaqdır.

2.Yer kürəsi günəşdən müəyyən edilmiş məsafə miqdarında, yəni 93 milyon mil aralı yerləşir. Bu

---

[15] "Nəhcül-bəlağə", 53-cü xütbə.

məsafənin təyin edilməsi isə, kainatı əhatə edən çox dəqiq və ədalətli bir nizamın olması səbəbindəndir. Əgər belə olmasaydı və yer kürəsi günəşdən bir qədər artıq məsafədə yerləşsəydi həyat üçün lazım olan istilik və hərarət itirilmiş olardı. Həmçinin, bu halın əks formasını fərz edək. Əgər yer kürəsi günəşə bir qədər yaxın məsafədə yerləşsəydi, onda yer üzərindəki hərarət 12 milyon dərəcəyə çatar, canlılar məhv olar, həyat isə sona yetərdi.

3. Məlumdur ki, yer kürəsinin üzərini müəyyən qalınlığa malik hava örtüyü əhatə edir. Əgər bu örtüyün qalınlığı mövcud vəziyyətdən aşağı miqdarda olarsa, həyat, meteor və kometlərin "yağışı" altında olacaqdı. Çünki hər gün fəzaya 150 min meteor və komet düşür. Hər birinin sürəti isə tüfəng atışından 90 dəfə güclüdür. Bütün bunlar isə həyatın məhv olması, canlıların həlak olması deməkdir.

Bu halın əksini fərz edək. Əgər hava örtüyünün qalınlığı hazırkı vəziyyətindən çox olarsa, bu, həyat üçün zəruri olan günəş şüalarına xəsarət yetirəcəkdir.

Kainatda yaşanan bu dəqiq tarazlığı, hər bir əsasın və hər bir maddənin onun üçün müəyyən edilmiş hüdudu keçməməsini ədalət halı hesab etmək mümkündür. Bunun müqabilində, kainatın əsas və materiyalarından biri nizamı pozaraq onun üçün təyin edilmiş hüdudu keçə bilərsə, bunu zülm halı kimi dəyərləndirmək olar. Kainatda ədalət halı hakim olduqca, kainat xeyir və əmin-amanlıq içində olacaqdır. Lakin kainata zülm halı hakim kəsilərsə, bu, kainatın məhv olması ilə nəticələnəcəkdir.

Bununla kainatın nizam-intizamında olan ədalət və zülmə nəzər saldıq. İndi isə ictimai ədalət və ictimai zülmlə tanış olaq.

## İCTİMAİ ƏDALƏT

Qeyd etdiyimiz kimi, kainatda olan hər bir zərrə, və ya materiya üçün müəyyən edilmiş hüdud vardır. Həmçinin qeyd etmişdik ki, materiyanın öz hüdudundan kənara çıxmaması ədalət, hüdudundan çıxması isə zülm deməkdir. Bu hal bəşər cəmiyyətində də eynilə belədir. Allah cəmiyyətdəki hər bir fərdə hədd-hüdud təyin etmiş və həmçinin, ona hüquqlar vermişdir. Əgər insan onun üçün müəyyən olunmuş hüduda uyğun hərəkət etsə və hüquqlarını əldə edə bilsə, bu, ədalət adlanacaqdır. Lakin əgər insan öz hüduduna təcavüz edərsə, yaxud onun əlindən hüquqları alınarsa, bu, zülm adlanacaqdır. Nizam-intizamdakı ədalət kainatın xeyir və mətinliyini hifz etdiyi və bunun müqabilində nizam-intizamdakı zülm kainatı xarab edib dağıtdığı kimi, ictimai ədalət də cəmiyyəti qoruyur, onu xoşbəxt edir, ictimai zülm isə cəmiyyəti parçalayır və onu bədbəxt edir.

Bu mövqeyə uyğun bir kəlamda İmam Əli(ə) Ziyad ibn Əbihə belə deyir: "Ədalətlə rəftar et, düşmənçilik və zülmdən çəkin. Çünki düşmənçilik təxliyəyə –insanların qaçmasına, köçüb getməsinə, zülm isə qılınca, inqilaba səbəb olar".[16]

Burada mühüm bir həqiqətə diqqət etməyimiz zəruridir. Həqiqət isə ondan ibarətdir ki, bəşərin Xaliqi kainatın Xaliqidir. Bəşər cəmiyyəti isə İlahi ədalətin hakimlik etdiyi kainatın cüzi bir hissəsidir. Maraqlıdır,

---

[16] "Nəhcül-bəlağə", Hikmətli kəlamlar, №476

Allah-təalanın kainatın bütün zərrələrinə ədalətli nizam-intizamı vacib edib, bəşər cəmiyyətini isə zülm və tüğyan tərəfindən parçalanmasına icazə verməsi mümkündürmü?

Kainatın xaliqi bir olduğu kimi, kainatı idarə edən nizamın da bir olması labüddür. Quran bu həqiqəti təkid edərək belə deyir:

*"Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatdaq, nöqsan) görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada (axtardığını tapmayıb) zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır".* [17]

Lakin Allah-təala insanı sair məxluqlardan uca, şərəfli və fəzilətli etmək istəyir. Bu səbəbdən Allah insana özünü kamilləşdirməsi üçün fürsət vermişdir. Günəş və aya vacib etdiyi ədaləti insana da vacib bilmiş, lakin onu məcbur etməmişdir. İnsana ədalət yolunu açıqlamış və onu bu yol ilə getməyə sovq etmişdir. Həmçinin, ona zülm yolunu bəyan etmiş və insanı bu yolda batmaqdan çəkindirmişdir. Sonra isə bunları insanın öz ixtiyarına buraxmışdır.

## CƏMİYYƏTDƏ ZÜLMÜN NÖVLƏRİ

"Nəhcul-bəlağə"dəki ədalət anlayışı və onun ictimai meyarlarının aydınlaşması üçün biz, ictimai zülmün növləri və bu haqda İmam Əli(ə)-ın mövqeyini qeyd etməliyik.

---

[17] "əl-Mulk" surəsi, ayə 3, 4

*1. Ehtiyac və məhrumiyyət:* – Allah-təala insanları xəlq etmiş, onlardan hər birinin, daha doğrusu, hər bir canlı məxluqun yaşayış və ruzisini öz öhdəsinə götürmüşdür. Allah-təala buyurur: ***"Yer üzərində yaşayan elə bir canlı yoxdur ki, Allah onun ruzisini verməsin".***[18]

İmam Əli(ə) deyir: "Hər bir məxluq Allaha möhtacdır. Allah onların ruzilərini təmin etmiş, məhsullarını təqdir etmişdir".[19]

Bu ruzi isə kainatın xəzinə və sərvətlərində yerləşdirilmişdir. Ona görə də hər bir insana öz payını bu xəzinə və sərvətlərdən çıxarmaq üçün müəyyən bir işlə məşğul olması vacibdir. Lakin bir insan fiziki və ictimai problemlər səbəbindən iş qabiliyyətini həyata keçirə bilmirsə və öz payını iş görmədən kainatın sərvətlərindən götürürsə, görəsən, onun buna haqqı çatırmı? Bu insan məhrumiyyət içində yaşamalı və aclıqdan ölməlidirmi?

Əsla... Allah-təala iş görməyə qüdrəti çatanlara və kainatın sərvətlərindən faydalananlara aciz yoxsulun ehtiyacını ödəmələrini və ondan məhrumiyyəti dəf etmələrini vacib etmişdir. Allah-təala buyurur:

***"Onların mallarında dilənçinin və (abrına qısılıb dilənməyən) yoxsulun haqqı (payı) vardır".***[20]

Əgər varlılar yoxsulların ehtiyac və yaşayışlarının təmin olunmasından imtina etsələr, Allahın razı qalmadığı, İslam ədalətinin icazə vermədiyi bir zülm və düşmənçilik etmiş olarlar.

---

[18] "Hud" surəsi, ayə 6

[19] "Nəhcül-bəlağə", 91-ci xütbə

[20] "əz-Zariyat" surəsi, 19-cu ayə

İmam Əli(ə)-ın bu mövqeyə aid bir kəlamına nəzər salaq: "Həqiqətən də, nöqsan sifətlərdən münəzzəh olan Allah yoxsulların güzəranını zənginlərin mallarında təqdir etmişdir. Zəngin yoxsulun haqqını versəydi, heç bir yoxsul qalmazdı, Uca Allah isə zənginlərdən bunu soruşacaqdır".[21]

İmam Əli(ə) Məkkəyə vali göndərdiyi Qəsəm ibn Abbasa yazdığı məktubda belə deyir: "Yanında yığılmış Allah malına bax. Yığılmış malı və ona olan ehtiyacı nəzərə alaraq, yanında olan oğul-uşaq sahiblərinə, kasıblara sərf et".[22]

İmam Əli(ə) öz xilafəti dövründə Malik Əştərə yazdığı məktubda deyir:

" Allah xətrinə, Allah xətrinə aşağı təbəqənin qeydinə qal. Onlar ağız açacaqları bir yer tapmayan, yoxsul, möhtac, ehtiyacdan boğulan, dərdə düşmüş, qazancdan aciz qalmış adamlardır. Bu sinif içərisində dilənçilər olduğu kimi, bir şey umub gözləyənlər, ancaq heç kimdən heç nə istəməyənlər də var. Onların haqqına dair Allahın sənə əmr etdiyi qənimətdən, dövlətə aid ərazinin gəlirindən, əkinindən onlara bir pay ayır. Olduğun şəhərə yaxın yerlərdə yaşayanlarla uzaqdakılar eyni hökmə tabedir. Onların hər biri istəyir ki, sən onun haqqını qoruyasan".[23]

Maraqlıdır, zəngin insanlar tüğyan edib ədalət qanununa tabe olmasalar, yoxsulları ehtiyac və məhrumiyyət içində vurnuxduqlarını görüb tərk etsələr nə baş verəcəkdir? Belə halda aşağıda qeyd ediləcək xətərli nəticələr baş verəcəkdir:

---

[21] "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, rəqəm 328

[22] "Nəhcül-bəlağə", 67-ci xütbə

[23] "Nəhcül-bəlağə", 53-cü xütbə

a) *"Təbəqələşmə".* Bu isə o deməkdir ki, insanların bir qismi sərvətləri özlərində cəm edəcək, eyni vaxtda digər bir qism isə, ehtiyac və məhrumiyyət odu içində vurnuxacaqdır. Günlər ötdükcə varlıların sərvət və mənsəbləri, kasıbların isə bədbəxtlik və mütilikləri artacaqdır. İmam Əli(ə) deyir: "İnsanlardan hansı birinə istəyirsənsə bax. Sən yalnız yoxsulluq içində vurnuxan fəqir, Allahın nemətini küfrə dəyişən zəngin və yaxud Allahın haqqını xəsisliklə cəm edən paxıl görəcəksən".[24]

İmam Əli(ə) açıq-aşkar cəmiyyətdə təbəqələşməni tənqid edir. O, Bəsrəyə vali təyin etdiyi Osman ibn Huneyfə yazdığı məktubda deyir: "Sonra, ey Huneyf oğlu, eşitdik ki, bəsrəlilərdən bir hissəsi səni toya çağırıb, sən də getmisən. Növbənöv yeməklər, böyük kasalar xoşuna gəlib. Halbuki, mən sanmazdım ki, sən də yoxsullar çağırılmayan, varlılar dəvət edilən bir toya gedərsən".[25]

b) *"Cinayət və yoldan azma".* Çünki yoxsulluq və ehtiyac insanı oğurluq, qarət, hiyləgərlik kimi cinayətlərə sövq edir. İmam Əli(ə) deyir: "Əgər varlı sərvətinin paxıllığını edərsə - yəni kasıblar üçün xərcləməzsə, - fəqir axirətini bu dünyasına satar".[26]

c) *"İctimai iztirab".* Nə vaxta qədər kasıblar aclıq acısına səbr etməli, ehtiyac və məhrumiyyətə dözməlidirlər? Belə təqdirdə həsəd hissinin onların qəlblərində yaranması və özünü göstərməsi labüddür. İmam Əli(ə) deyir: "Zülm qılınca doğru səsləyir".[27]

---

[24] "Nəhcül-bəlağə", 129-cu xütbə
[25] "Nəhcül-bəlağə", 45-ci xütbə
[26] "Nəhcül-bəlağə", Hikmətli kəlamlar, №372
[27] "Nəhcül-bəlağə", Hikmətli kəlamlar, №476

*2.Bərabərliyin pozulması.* Bu hal ictimai zülmün ikinci formasıdır. Çünki ictimai sahə və iqtisadi imtiyaz, yalnız bir qrup insanlara verilir. Bu da ondan irəli gəlir ki, onlar ya hakimiyyət orqanı ilə əlaqəlidirlər, ya da hakimə qohumluqları çatır. Bu da səbəb olur ki, hakimiyyətə səlahiyyəti çatmayanlar rəhbərliyə yetişir, insanların şərəf və hüquqlarını ayaqlayırlar. Bunun müqabilində isə, istedadlı insanlara öz bacarıqlarını nümayiş etdirmək üçün fürsət verilmir və cəmiyyət onların xidmətlərindən məhrum olur.

İmam Əli(ə) məhz bu sahədə sərt mövqe seçmişdi. O Həzrət xilafətə gələn kimi, keçmiş xəlifənin qohumlarına və dostlarına nahaq verilmiş siyasi və iqtisadi imtiyazları ləğv etmişdi. İmam Əli(ə) deyir: **"Əgər (haqsız yolla qazanılmış) pulla qadınlarla evlənmiş, xidmətçilər sahibi olmuş (bir şəxs) görsəm onu geri qaytarardım. Çünki ədalətdə genişlik vardır. Kiməsə ədalət darısqal gəlirsə, zülm, sitəm, zor onun üçün daha darısqal olar".**[28]

İmam Əli(ə) keçmiş valilərin işdən çıxarılmasını israr edirdi. Onların arasında keçmiş xəlifə tərəfindən Şama vali təyin edilmiş Müaviyə ibn əbi Süfyan da var idi.

İmam Əli(ə) beytülmalın paylanmasında da insanların məqam cəhətdən fərqlənmələrinə baxmayraq bərabərlik siyasətini tətbiq etdi. İmam Əli(ə) bu əmələ görə məzəmmət olunarkən öz ədalətli siyasətini belə şərh etdi: **«Məni, rəhbəri olduğum bir cəmiyyəti, zülmlə özümə tabe etməyə sövq edirsiniz? And olsun Allaha, dünya nağıla uyub hekayələr söylədikcə, göydə ulduz ulduzu izlədikcə, bu işə yaxın durmaram. Bu mal mənim**

---

[28] "Nəhcül-bəlağə", 15-ci xütbə

olsaydı, yenə xalqa bərabər paylardım – halbuki bu mal Allahın malıdır".[29]

Hətta İmam Əli(ə)-ın doğma qardaşı, Əqil ibn əbi Talib o Həzrətin yanına gəlib, başqalarından fərqli olaraq beytul-maldan ona bir qədər çox verilməsini tələb etdikdə, İmam Əli(ə) razı olmamışdı. Əqil tələbini bir daha təkrar etdikdə isə, İmam Əli(ə) əməli surətdə ədalətli bölümü israr etmişdi. Bu hadisə haqqında İmam Əli(ə) belə deyir:

"Allaha and olsun, Əqili yoxsul bir günə düşmüş vəziyyətdə gördüm. Gəlib məndən sizin buğdanızdan bir batman istəyir, verməyimi təkid edirdi. Balalarının çox pərişan, toz-torpağa bulaşmış bir halda gördüm. Yoxsulluqdan bənizləri qaralmışdı, sanki üzlərini sürmə ilə boyamışdılar. Diləyində israr edirdi, istəyini təkrar edirdi. Sözlərini dinlədim, elə zənn etdi ki, dinimi ona satacağam, yolumdan çıxıb ardına düşəcəyəm.

Bir dəmir parçasını qızdırdım, ibrət vermək üçün bədəninə yaxınlaşdırdım. Ağrıdan xəstə kimi qışqırıb inləməyə başladı. Az qalmışdı ki, dəmiri yaxınlaşdırdığım yer yanıb dağlansın. Ona dedim: –Ey Əqil, analar yasında ağlasınlar. Bu, bir insanın yalandan sənin bədəninə yaxınlaşdırdığı qızmar dəmirdir. Sən onun ağrısından-acısından bu qədər bağırırsan, sonra da məni tutub Allahın qəzəbiylə alovlandırdığı bir oda tərəf çəkirsən. Əcəba, sən bu dəmirin ağrısından fəryad etdiyin halda, mən Cəhənnəm atəşindən fəryad etmərəmmi?"[30]

*3.Qanun qarşısında toxunulmazlıq:* İctimai zülmün üçüncü növü odur ki, qanun, yalnız zəif və fəqir

---

[29] "Nəhcül-bəlağə", 126-cı xütbə.
[30] "Nəhcül-bəlağə" 224-cü xütbə.

insanlara tətbiq olunsun, amma mənsəb, sərvət və cah-cəlal sahibləri qanun qaşısında məsuliyyət daşımasınlar .

İmam Əli(ə) zülmün bu növünə qarşı ciddi-cəhdlə mübarizə aparmışdır. O deyir: "Alçaldılmış adam mənim nəzərimdə haqqı alınanadək qüdrətli, güclü adam isə haqq ondan alınanadək zəifdir".[31]

Ordu sərkərdələri və əsgərlər onları qanun qarşısında toxunulmaz edən mənsəblərindən faydalanaraq insanları təhdid edirdilər. İmam Əli(ə) isə bu toxunulmazlığı aradan qaldırdı. O Həzrət ordusunun keçdiyi məntəqələrə yazdığı məktubda belə deyir:

"Allah qulu əmirəlmöminin Əlidən ordunun keçəcəyi yerlərdəki xərac yığanlara və valilərə: Sonra bilin ki, Allahın izni ilə hökmünüz altında olan yerlərdən keçməli olan ordunu göndərdim. Xalqa əziyyət verməmələri, pis iş tutmamaları haqqında Allahın onlara vacib etdiyi şeyləri tövsiyə etmişəm. Artıq mən onlara cavabdeh ola bilmərəm. Onları sizin idarənizə verirəm. Ancaq aclıq səbəbindən ağır vəziyyətə düşən əsgərlərin doyacaqları qədər bir şey yemələri olar. Onların xalq malına əl uzadaraq zülm etmələrinə, idarəniz altında olan pis adamların isə dediyim möhtac şəxs istisna olmaqla, orduya qarşı çıxmalarına mane olun. Mən də sizin aranızdayam. Arxadan mən də gəlirəm. Ordu tərəfindən bir zülm və haqsızlıq görsəniz, onları idarə etməkdə aciz olsanız,yalnız Allahın və mənim köməyimlə həll edəcəyiniz işlərlə qarşılaşsanız mənə şikayət edin. Allahın izni və onun köməyi ilə mən buna mane olaram".[32]

---

[31] "Nəhcül-bəlağə" 37-ci xütbə.
[32] "Nəhcül-bəlağə", 60-cı xütbə.

Beləcə, İmam Əli(ə) qanunun aliliyini və əzəmətini qorumaq üçün qanun üzərinə edilən təcavüzə qarşı hədd qoydu.

*4.Başqalarının hüquqlarına edilən təcavüz:* Cəmiyyətdə yaşayan hər bir fərdin şərəfi və hüququ vardır. Bu səbəbdən hər bir fərdin şərəf və azadlıq hüququna edilən təcavüz zülmün bir forması hesab olunur. Bu zülmə əsasən də Allahın zalıma cəza verməsi labüddür və bu cəza zalımın məzluma qarşı etdiyindən şiddətli olacaqdır. İmam Əli(ə) buyurur: **"Zalıma gəlib çatacaq ədalət günü məzlumun uğradığı cövr və cəfa günündən şiddətlidir".**[33]

Zülmün qurbanı zalım qarşısında müqavimət göstərməyi bacarmayan, öz hüququnu qorumağa gücü çatmayan zəif və fəqir insan olduqda zülm daha da mənfur olur. Bu haqda İmam Əli(ə) belə buyurub:

**"Zəifə edilən zülm ən ləyaqətsiz zülmdür".**[34]

**"Vay olsun o adamın halına ki, Allah dərgahında onun rəqibi fəqir və zəif insan olsun".**[35]

Bu səbədən də, hakimiyyətə, həmçinin, cəmiyyətə zalımı öz həddində saxlamaq və zalım tərəfindən tapdanmış məzlum haqqını geri qaytarmaq vacibdir. İmam Əli(ə) buyurur: **"Zalımdan məzlumun haqqı alınanadək ədalətlə çalışaram, zalımı isə, istəməsə də, belə həqiqət çeşməsinə varid edənədək buxovundan (dəvənin burnuna keçirilən halqa) tutub arxamca dartaram".**[36]

---

[33] "Nəhcül-bəlağə" Hikmətli kəlamlar rəqəm 241.

[34] "Nəhcül-bəlağə", 31-ci xütbə

[35] "Nəhcül-bəlağə" 26-cı xütbə

[36] "Nəhcül-bəlağə" 136-cı xütbə

"Hər hansı bir ümmətdə zəifin haqqı güclüdən alınmırsa o ümmət heç vaxt müqəddəs olmaz".[37]

## ZÜLMƏ QARŞI MÖVQEYİMİZ

İctimai zülmün növləri ilə tanış olduqdan sonra artıq cəmiyyətimizdəki zülm hallarını anlaya bilərik. Lakin bu zülm hallarına qarşı olan vacib mövqeyimiz nə olmalıdır? Zülmə və ondan törənən mənfi hallara qarşı heç bir mövqe seçmədən, sadəcə olaraq müşahidə etmliyik? Yoxsa, biz ictimai zülmə qarşı məsuliyyət daşıyırıq?

İmam Əli(ə) müsəlman şəxsin zülm qarşısındakı mövqeyini aşağıdakı şəkillərdə açıqlamışdır:

1. *"Zülmdən təsirlənmək"*; Əgər bir şəxs ictimai zülmü görərsə, yaxud bu haqda bir xəbər eşidərsə, buna qarşı məsuliyyətsizlik etməyib laqeyd yanaşmaması vacibdir. Əksinə, elə iş görməlidir ki, vicdanında və namusunda zülmün əleyhinə qarşılıqlı təsir yaransın. İmam Əli(ə) yaşadığı əsrdə baş vermiş zülm hallarından biri haqda danışarkən, dinləyənləri təsirlənməyə, təəssüf etməyə, hətta kədərdən ölməyə belə vadar etmişdir. İmam Əli(ə) buyurub: **"Mənə xəbər verdilər ki, onlardan( Müaviyənin əsgərlərindən) bir nəfər müsəlman qadınının, bir başqası isə müsəlmanların himayəsində yaşayan(kitab əhlindən) bir qadının evinə soxulmuş, xalxallarını, bilərziklərini, boyunbağlarını, sırğalarını götürmüşdür. Onlar isə yalnız Allaha sığınmışlar. Əgər bir müsəlman bu hadisədən təəssüflənərək kədərindən ölərsə, qınanmaz. Əksinə, məncə, bu, doğru olan bir haldır".**[38]

---

[37] "Nəhcül-bəlağə" 53-cü xütbə

[38] "Nəhcül-bəlağə" 37-ci xütbə

2. *"Zalımın əleyhinə olmaq və məzlumun tərəfində dayanmaq"*; İmam Əli(ə) iki oğlu Həsən və Hüseyn (ə)-a etdiyi son vəsiyyətində belə deyir: "Zalıma rəqib, düşmən olun, məzluma isə yardım edin".[39]

3. *"İctimai ədaləti bərpa etmək və zülmə qarşı mübarizə aparmaq"*; Bu, hər bir fərdin məsuliyyətidir. İmam Əli(ə) buyurub: "Allah ariflərdən əhdü-peyman almışdır ki, onlar zalımın doyub zülm etməsi, məzlumun isə ac qalmasına biganə yanaşmasınlar".[40]

## NƏHCÜL-BƏLAĞƏDƏ HAQQ ANLAYIŞI

İmam Əli(ə) deyir: "Dünyandan nəfsin üçün əldə etdiyin ən üstün nailiyyət ləzzətə yetişməyin və qəzəbi udmağın deyil, batili boğmağın, haqqı isə diri saxlamağın olsun".[41]

Haqq –sabit, doğru bir şeydir. Onun müqabilində batil dayanır. Batil isə –xəta,səhv, varlığı olmayan bir şeydir. Haqq həyatın bütün fikri və elmi sahələrini əhatə edən bir çərçivədir. Ancaq həyatda haqq fikir və batil fikir, haqq söz və batil söz, haqq əməl və batil əməl, haqq mövqe və batil mövqe vardır.

Buna görə də, reallıqla uzlaşan fikir –haqq fikirdir. Bu səbəbdən reallıqı əks etdirən söz –haqq söz, reallıqdan çıxış edərək yerinə yetirilən əməl –haqq əməl, reallığın tələb etdiyi mövqe –haqq mövqedir.

İmam Əli(ə) deyir: "Haqq da var, batil də və hər ikisinin də tərəfdarı vardır".[42]

---

[39] "Nəhcül-bəlağə" 47-ci xütbə

[40] "Nəhcül-bəlağə" 3-cü xütbə

[41] "Nəhcül-bəlağə" 66-cı xütbə

[42] "Nəhcül-bəlağə" 16-cı xütbə

Bu səbəbdən də, insan hər bir şeydə haqqı izləməli və nəfsinə batil fikri qəbul etməyə yaxud batil söz danışmağa və yaxud batil işlə məşğul olmağa imkan verməməlidir. Belə olmazsa o, özünü aldadar, öz nəfsini azdırar və ona zülm edər. Kafirlər də həmçinin, özlərini aldadaraq belə etiqad edirdilər ki, ölümdən sonra həyat yoxdur və onlar sorğu-sual edilməyəcək və cəzalandırılmayacaqlar. Lakin bu etiqad həqiqi reallığı dəyişmədi. Əksinə, onlar bir müddət sonra da olsa, bu həqiqəti etiraf etməyə məcbur oldular. Qurani-kərimdə buyurulur: *"Kafirlər Cəhənnəm oduna göstəriləcəklər (Cəhənnəm əzabını dadacaqları) gün (onlardan soruşulacaqdır): Məgər bu (daddığınız əzab) doğru deyilmi? Onlar: Bəli, Rəbbimizə and olsun (ki, doğrudur), -deyə cavab verəcəklər. (Allah) buyuracaqdır: Elə isə (dünyada) küfr etdiyinizə görə dadın əzabı".*[43]

Kommunistlərin etiqadlarına əsasən, şəxsi mülkiyyət və nəfsi sevmək insanın zati duyğularından deyil, bu, kəsb olunmuş bir duyğudur və onu aradan qaldırmaq mümkündür. Lakin kommunist inqilabı qələbə çaldıqdan sonra isə onlar şəxsi mülkiyyəti ləğv etməyə çağıran nəzəriyyələrinin tətbiq edilməsindən daşındılar və özlərinə bəraət qazandıraraq, bu nəzəriyyəni həyata keçirmək üçün "sosialist mərhələsi" adlandırılan bir hazırlığa möhtac olduqlarını bildirirlər. Sonda isə Marks nəzəriyyəsi müvəffəqiyyətsizliyə uğradığını, siyasi və ictimai varlığının olmadığını elan etdi.

Qərb isə uzun müddət qatilin edam edilməsi hökmünün tətbiqinə etiraz etdilər. Belə zənn etdilər ki,

---

[43] "əl-Əhqaf" surəsi, 34-cü ayə

ömürlük həbs edamı əvəz edən bir cəzadır. Sonda isə reallıq qarşısında təslim oldular və *"Qisas hökmü sizin üçün həyatdır"*[44], –ayəsi onlar üçün sabit oldu.

Bu yerdə İmam Əli(ə) belə deyir:

**"Haqqa qarşı vuruşanı haqq məğlub edər".**[45]

**"Kim haqdan üz döndərərsə, həlak olar".**[46]

**"Həqiqəti əsla heç nə əvəz edə bilməz".**[47]

## HAQQIN MEYARI NƏDİR?

Bəlkə də insanların əksəriyyəti haqqı izləməyə rəğbətlə yanaşır və ona əməl etmək istəyirlər. Lakin problem haqqı tanımaq və onun meyarlarını ayırd etməkdədir. Çünki insanların əksəriyyəti haqqa nail olmaq üçün doğru olmayan meyarlardan istifadə edirlər və bu meyarlar onları həqiqətə deyil, batilə yetişdirir. Lakin onlar öz etiqadlarına əsasən, haqq yolda olub həqiqəti təmsil etdiklərini zənn edirlər. Quran bu kimi şəxsləri əməl baxımından insanların ən müvəffəqiyyətsizi və ən xəsarətlisi kimi vəsf edir. Allah-təala Quranda belə buyurur: ***"(Ya Məhəmməd!) De: sizə əməlləri baxımından (axirətdə) ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini (və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirlər".***[48]

İmam Əli(ə) xəvariclər problemindən danışdığı zaman, onların haqqa tabe olmaq rəğbətlərinin olmasına

---

[44] "əl-Bəqərə" surəsi, 179-cu ayə

[45] "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, rəqəm 408

[46] "Nəhcül-bəlağə" 16-cı xütbə

[47] "Nəhcül-bəlağə" 59-cu xütbə

[48] "əl-Kəhf" surəsi, ayə 103 və 104

baxmayaraq, haqqa nail olmaq üçün istifadə etdikləri meyarların səhv olmasını vurğulayaraq buyurub: **"Məndən sonra xəvaricləri öldürməyin. Çünki haqqı axtararaq xəta edən, batili istəyib haqqa yetişən kimi deyildir".**[49]

Görəsən İmam Əli(ə)-ın nəzərində həqiqətin meyarı nədir? Görəsən bu, əksər insanların zənn etdikləri kimi səs çoxluğu və tərəfdar çoxluğu ilə olurmu? Belə ki, onlar çoxluğun hər hansı bir işə tərəf meyl etdikləri üçün həmin işi doğru sayırlar. Qurani-kərim belə meyarı inkar edir və deyir:

***"Onların əksəriyyəti haqqı xoşlamır".***[50]

***"Sən (qövmünün imana gəlməsini) çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir".***[51]

***"Sən yer üzündə olanların çoxsuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq yalan danışarlar".***[52]

İmam Əli(ə) buyurur: **"Haqq yolunda insanların az olmasına görə sıxılmayın".**[53]

İmam Əli(ə) xəlifə Osman ibn Əffan tərəfindən Rəbəzəyə (Mədinə yaxınlığında məntəqə adı) sürgün edilən Əbu Zər Ğəfari ilə vidalaşarkən demişdir: **"Səninlə, ancaq haqq dost olar, səndən, ancaq batil qaçar".**[54]

Maraqlıdır, meyar cəmiyyətdəki alicənab şəxsiyyətlərin və qövm ağsaqqallarının rəyidirmi? Əgər biz haqqı bilmək istəyiriksə, ağsaqqallara və ümmətin

---

[49] "Nəhcül-bəlağə" 61-ci xütbə
[50] "əl-Muminin" surəsi, 70-ci ayə
[51] "Yusif" surəsi, 103-cü ayə
[52] "əl-Ənam" surəsi, 116-cı ayə
[53] "Nəhcül-bəlağə" 241-ci xütbə
[54] "Nəhcül-bəlağə" 130-cu xütbə

alicənab şəxsiyyətlərinə müraciət etməliyik. Çünki onların rəyi şübhəsiz ki, doğru rəydir. Bu meyar da həmçinin, digər bir xətalı meyardır. Çünki bu şəxsiyyətlərin haqqı tanımamaları və yaxud qəbul etməmələri ehtimalı var. Belə təqdirdə isə onlara tabe olmaq Cəhənnəm, zəlalət və əzaba düçar olmaq deməkdir. Qurani-kərim bu mənanı çox gözəl açıqlayır: *"Üzləri odda (o tərəf-bu tərəfə) çevrildiyi (haldan-hala düşdüyü) gün onlar: Kaş Allaha müti olaydıq, Peyğəmbərə itaət edəydik - deyəcəklər. Onlar deyəcəklər: Ey Rəbbimiz! Biz ağalarımıza, böyüklərimizə itaət etdik, onlarsa, bizi haqq yoldan azdırdılar".*[55]

İmam Əli(ə) da Cəməl döyüşündə, məhz bu problemlə üzləşdi.

"Nəhcul-bəlağə"də varid olmuşdur ki, Haris ibn Hut İmam Əli(ə)-ın yanına gələrək deyir: *"Belə fikirləşirsən ki, mən, Cəməl döyüşündə vuruşanların zəlalətdə olduğunu zənn edirəm?"*

*İmam Əli(ə) isə cavabında demişdir: "Ey Haris, sən yaxına baxıb, uzağı görmürsən və heyrətlənirsən. Sən haqqı tanımadığın üçün doğru mövqedə olanı tanımırsan. Həmçinin, batili tanımadığın üçün batil mövqedə olanıda tanımırsan".*[56]

Görəsən haqqın meyarı bir gəncin əcdadlarına təqlid etdiyi və onların yollarını izlədiyi ata-babaların həyat tərzidirmi?. Bu hal əksər insanlara hakimdir. Belə ki, düşünmədən, dəlil və sübut axtarmadan müsəlman ata-anadan dünyaya gəlmiş uşaq şübhəsiz ki, müsəlman, hər hansı bir məzhəbə üzv olan ata-anadan dünyaya

---

[55] "əl-Əhzab" surəsi, ayə 66-67

[56] "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, № 262

gəlmiş uşaq isə ata-anasının izlədiyi yolun yolçusu olacaqdır. Bu meyar da insanın təfəkkürünü və hürriyyətini donduran əhəmiyyətsiz bir meyardır. Quran da bu növ kor təqlidi pisləmiş və: *"Biz atalarımızı bir din üzərində gördük və biz də (təqlidlə) onların ardınca getməkdəyik"*[57], –deyənlərə istehza etmişdir.

İmam Əli ibn Əbu Talib(ə) "Nəhcul-bəlağə"də İslamın əvvəlində ilk iman gətirənlərin təkcə ata-babaların düşüncə və təfəkkürünə müxalif olmalarını deyil, hətta bu düşüncələrə qarşı mübarizə aparmasını xatırladaraq buyurmuşdur:

**"Peyğəmbər(s)-lə birlikdə atalarımız, oğullarımız, qardaşlarımız və əmilərimizlə döyüşürdük. Bu isə ancaq imanımızı və (Allaha) təslim olmağımızı artırırdı".**[58]

Deməli, haqqın meyari əksəriyyətin rəyi, adlı-sanlı şəxsiyyətlərin mövqeyi və ata-babaların həyat tərzi deyilsə, bəs nədir?

Haqqın meyarı iki şeydən ibarətdir. Onlardan birincisi Allahın insana bəxş etdiyi ağıldır. İnsan, məhz ağlından yararlanaraq fikirləşir və onun işığı ilə haqq yola hidayət olur. Elə bu səbəbdən də, Qurani-Kərim insanların haqqa yetişmələri üçün onları ağıllarını işlətməyə və ağılla düşünməyə sövq edir. Həzrət Peyğəmbər(s)-in risalətinin doğruluğuna şəkk-şübhə edənlərə Quran belə buyurur:

***«(Ya Məhəmməd! Bu müşriklərə) de: –Mən sizə, ancaq bir öyüd verirəm. Allah xatirinə (Məni dinlədikdən sonra məclisimdən) iki-iki, bir-bir durun (durub gedin), sonra da bir dərindən düşünün, (görəcəksiniz ki,) sizin***

---

[57] əz-Zuxruf surəsi, ayə 23
[58] "Nəhcül-bəlağə" xütbə 56

*yoldaşınızda (Məhəmməd əleyhissəlamda) heç bir divanəlik əsəri yoxdur. O, yalnız qarşıdakı şiddətli əzabla (düçar olacağınız axirət əzabı ilə) sizi qorxudan bir Peyğəmbərdir».*[59]

Digər surədə isə Allah-təalanın əzəmətinə şəkk-şübhə edənlərə belə buyurulur:

*«Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları, ancaq haqq ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi?»*[60]

İmam Əli(ə) buyurmuşdur:

«Ağıl kimi zənginlik yoxdur».[61]

«Ağıl, ona müraciət edəni aldatmaz».[62]

«Ağıl kəsici qılıncdır».[63]

«Düşüncə saf güzgüdür».[64]

İmam Əli(ə) Adəm Peyğəmbərin yaradılmasını vəsf edərək belə deyir: «...Sonra ona da ruhundan üfürdü o da yaddaşından faydalanan, fikirlərindən istifadə edən, bədən üzvlərindən yararlanan, elmlə haqq və batil arasında seçim edən insan oldu».[65]

Haqqın ikinci meyarı isə vəhydir. Maraqlıdır, Uca Allah öz bəndələrinə haqq olmayan bir şeyi vəhy edərmi və yaxud onlara batil işlər görməyi əmr edərmi? Hər bir insana dinin göstərişlərinin və rəyinin haqq olduğuna zərrə qədər də şəkk etməməlidir. Allah-təala Qurani-

---

59 Səba surəsi, ayə 46

60 ər-Rum surəsi, ayə 8

61 "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, №54

62 "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, №281

63 "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, №424

64 "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, №5

65 «Nəhcül-bəlağə», xütbə 1

kərimdə buyurmuşdur: *«Haqq sənin Rəbbindədir, buna heç vaxt şübhə edənlərdən olma».*[66]

Digər bir yerdə isə belə buyurur: *«Ey insanlar Peyğəmbər Rəbbinizdən sizə haqla (Quranla) gəldi».*[67]

İmam Əli(ə) da Həzrət Peyğəmbərin insanları haqqa hidayət etdiyini dəfələrlə təkrarlamış və Peyğəmbər olaraq göndərilməsinin hədəfini haqqı insanlara bəyan etmək kimi açıqlamışdır. İmam Əli(ə) belə buyurmuşdur: **«Həqiqətən də nöqsan sifətlərdən uzaq olan Allah, Məhəmməd(s)-i dünyanı sönüb getmək, axirətin isə doğub parlamaq üzrə olduğu bir zamanda haqq olaraq göndərdi».**[68]

**«Məhəmməd(s) Allahın qulu və Rəsuludur. Allah onu əmrini qəti şəkildə bildirmək, (Allahı) xatırlatmaq üçün göndərmişdir. O da risaləti sədaqətlə çatdırmış, doğru yolla getmiş və haqq bayrağını aramızda ucaltmışdır».**[69]

## HAQQ VƏ ONU İZLƏYƏNLƏR HAQQINDA BƏHS

Böyük ciddi-cəhd və əziyyət naminə olsa da, bütün işlərdə haqqı axtarmaq və onu tanımaq üçün doğru meyarlardan istifadə etməklə araşdırma aparmaq hər bir insana vacibdir. İmam Əli(ə) buyurub: **«Haqq harada olursa-olsun onun uğrunda cəsarətlə mübarizə apar»**[70].

Bəzi vaxtlar batil haqq libası ilə pərdələnir. Mövcud zamanda narahatçılığa səbəb də, məhz budur. Belə ki, bəziləri müəyyən məqsədlər üçün vəhdət, hürriyyət,

---

66 əl-Bəqərə surəsi, ayə 147
67 ən-Nisa surəsi, ayə 170
68 "Nəhcül-bəlağə", xütbə 100
69 "Nəhcül-bəlağə", xütbə 100
70 "Nəhcül-bəlağə" 31-ci xütbə

ədalət və sivilizasiya kimi haqq şüarlarla çıxış edirlər. Şübhəsiz ki, bu şüarların məzmunu haqdır, lakin bu şüarları ucaldan kəs ondan batil yolda sui-istifadə edir. Bu səbəbdən insan çox dərrakəli olmalıdır ki, bu kimi şüarlar onu aldatmasın. İmam Əli(ə) da diqqəti bu əhəmiyyətli həqiqətə cəlb edir. Xəvariclərin: *"Hökm ancaq Allahındır"*, –şüarını eşidərkən İmam Əli(ə), heç bir müsəlmanın etiraz etməyəcəyi bu şüar qarşısında belə buyurdu: **"Bu, batil məqsəd üçün söylənilmiş haqq sözdür".**[71]

Bundan da təhlükəlisi odur ki, haqqla batil qarışsın, yaxud batil bir iş haqqla calaq edilsin. Belə olduqda isə haqqı batildən ayırmağı bacaran uzaq görən insandan başqa hamını aldatmaq və yoldan azdırmaq üçün çox əlverişli şərait yaranacaqdır. Məsələn: bədən tərbiyəsi və əzələlərin gücləndirilməsi düzgün bir işdir. Lakin hal-hazırda olduğu kimi, bu işə həddindən artıq vaxt sərf etmək, bədən tərbiyəsinə ifrat dərəcədə ciddi-cəhd və maraq göstərmək isə batil bir işdir. Lakin bu iki iş (doğru və batil iş) biri-birinə qarışmışdır. Ona görə də bu hal insanları özünə cəlb edərək, onlarda çaşqınlıq yarada bildi. İmam Əli(ə) bu xətərli hal haqda belə buyurub:

**"Batil haqqdan tam ayrılsaydı onu axtaranlardan gizli qalmazdı. Haqq da batil olmaq şübhəsindən tam təmizlənsəydi, iddiaçıların mübahisə mənbəyi olmazdı. Fəqət, bundan bir ovuc, ondan bir ovuc alınmış və bir-birinə qarışmışdır. Belə halda isə şeytan onu izləyənlər üzərindəki hakimiyyətini ələ alar. Nicat tapanlar isə, yalnız "(yaxşı əməllərinin mükafatı olaraq) öncədən**

---

[71] "Nəhcül-bəlağə" 40-cı xütbə

bizdən *"özlərinə ən gözəl nemət (Cənnət, əbədi səadət) yazılmış kəslər"*[72] olacaqlar".[73]

İmam Əli(ə) həmçinin buyurmuşdur:

"Şübhə ona görə şübhə adlandırıldı ki, o, haqqa bənzəyir".[74]

( *şübhə* və bənzər mənasını bildirən şəbih sözlərinin kök samitləri eynidir.)

Deməli, əgər insan haqqı tanıyırsa, bu, onun mənfəət və istəkləri ilə ziddiyyət təşkil etsə belə, ona bu haqqı izləmək və haqq mövqeyində əməl etmək vacib olur. Burada haqqın çətin olma problemi aydın olur. Çünki həqiqət əksər hallarda insanın mənliyi, istək və həvayi-nəfsi ilə uyğun gəlmir. Bu hal isə insanı doğru mövqeyi tərk edərək, öz şəhvət və istəklərini təmin etmək üçün batiliə sövq edir. İmam Əli(ə) buyurur:

**"Həvayi-nəfsə uymaq insanı haqdan uzaqlaşdırar".[75]**

**"Doğrudan da, haqq ağırdır, lakin şirindir. Batil isə yüngüldür, lakin insanı məhv edər".[76]**

**"Həqiqətən də, Allahın hüzurunda ən uca məqam o şəxsindir ki, çətin də olsa, haqqın yolunu tutar, batilin isə fayda verən cəhətlərinə uymayıb ondan çəkinər".[77]**

## HAQQ QARŞISINDA MƏSULİYYƏTİMİZ

Qeyd olunanlardan nəticə çıxararaq haqq qarşısında məsuliyyətimizi dörd əsasda xülasələşdirək:

---

72 "əl-Ənbiya" surəsi, 101-ci ayə

73 "Nəhcül-bəlağə" 50-ci xütbə

74 "Nəhcül-bəlağə" 38-ci xütbə

75 "Nəhcül-bəlağə" 42-ci xütbə

76 "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, №376

77 "Nəhcül-bəlağə" 125-ci xütbə

*1.Haqq barəsində axtarış:* "Haqq harada olursa-olsun onun uğrunda cəsarətlə mübarizə apar".[78]

*2.Haqqı izləmək:* "Həqiqətən də, Allahın hüzurunda ən uca məqam o şəxsindir ki, çətin də olsa haqqın yolunu tutar"[79].

İmam Əli(ə) təqvalı şəxslərin xislətləri haqda danışdıqda qeyd edir ki, o, haqq söz danışar və ona əməl edər".[80]

*3.Haqqa tərəfdar olmaq və onunla bir cəbhədə dayanmaq:* Deməli, insanın haqqı ilə batil arasındakı savaşda tamaşaçı mövqeyində olması doğru deyildir. Əksinə, ona vacibdir ki, haqqa tərəfdar olaraq mübarizəyə daxil olsun. Belə etməzsə, haqqı alçaltmış olur və haqqın məğlub olması məsuliyyətini daşıyır. İmam Əli(ə) batil ilə mübarizədə ona yardım etməyənlər haqda belə deyir:

"Batilə yardım etməsələr də, haqqı köməksiz qoydular".[81]

Əgər batil haqq üzərində qələbə çalarsa, kənardan baxanlar amanda qalacaqlarmı? Görəsən, batil onları haqq işlə məşğul olmağa imkan verəcəkdirmi? Əsla! İmam Əli(ə) deyir: "Allahın mərhəməti o adama olsun ki, haqqı görərkən ona kömək etmiş, batili görərkən ona qarşı çıxmış və öz yoldaşına həqiqətlə yardımçı olmuşdur".[82]

"Ey insanlar, haqqa yardım etməkdə bir-birinizdən ayrılmasaydınız, sizə bərabər olmayanlar sizi məğlub

---

[78] Nəhcuü-bəlağə" 101-ci xütbə

[79] "Nəhcül-bəlağə" 125-ci xütbə

[80] "Nəhcül-bəlağə" 87-ci xütbə

[81] "Nəhcül-bəlağə", Hikmətli kəlamlar, №18

[82] "Nəhcül-bəlağə" 205-ci xütbə

etməyə çalışmayacaqdılar, məğlub etdiyiniz adamlar isə, qüvvə əldə edə bilməyəcəkdilər".[83]

*4.Haqq üçün əməl etmək:* Belə ki, bütün ömrünü haqqın həyata keçməsi, batilin isə məhv olması üçün həsr etsin. İmam Əli(ə) deyir: "Dünyadan nəfsin üçün əldə etdiyin ən üstün nailiyyət ləzzətə yetişməyin və qəzəbi udmağın deyil, batili boğmağın, haqqı isə diri saxlamağın olsun".[84]

Diplom, mənsəb, imtiyazlar haqqın hədəflərini həyata keçirmək üçün fərdə yardımçı olan vasitələrdir. Ancaq bu vasitələrin özü fərdin hədəfinə çevrilərsə o, həyatını itirər. Abdullah ibn Abbas(Allah ondan razı olsun) deyir:

**"Əmirəlmöminin Əli(ə)-ın yanına daxil oldum və onun çarıq yamadığını gördüm. Mənə dedi: –Bu çarığın qiyməti nədir? Dedim: –Onun heç bir qiyməti yoxdur. İmam Əli(ə) belə dedi: –Allaha and olsun ki, bu çarıq mənim üçün sizə əmirlik etməkdən əzizdir. Mən, yalnız haqqı ayaq üstə qaldırmaq, batili isə aradan götürmək üçün sizə əmirlik edirəm".**[85]

## "HƏHC-UL-BƏLAĞƏ"DƏ AZADLIQ ANLAYIŞI

İmam Əli ibn əbu Talib(ə) buyurmuşdur: "Özündən qeyrisinin qulu olma. Allah səni azad yaratmışdır".[86]

---

[83] "Nəhcül-bəlağə" 166-cı xütbə
[84] "Nəhcül-bəlağə" 66-cı xütbə
[85] "Nəhcül-bəlağə" 33-cü xütbə
[86] "Nəhcül-bəlağə" 31-ci xütbə

## KAİNATIN MÜTİLİYİ

Kainatın genişliyinə və ondakı məxluqata diqqət yetirdiyimiz zaman görürük ki, bu kainatda ən kiçik zərrədən tutmuş, ən böyük qalaktikaya kimi hər şey onun üçün təyin edilmiş hərəkətə tabedir. Kainat və həyatı yaradan Allah hər bir zərrə və hər bir hərəkət üçün müəyyən dövr, xüsusi vəzifə təyin etmişdir. Məsələn: Allah-təala göy və yer üçün müəyyən bir nizam qoymuşdur. Göy və yerin qoyulmuş nizama müti olması ixtiyarı özlərindən asılı deyil. Allah-təala Qurani-kərimdə buyurur: "*Sonra Allah tüstü halında olan göyə üz tutdu. Ona (göyə) və yerə belə buyurdu: İstər-istəməz vücuda gəlin! Onlar da: (Allahın əmrinə itaət edərək) vücuda gəldik! - deyə cavab verdilər*"[87].

Günəş və aya da sərt bir qanun hakimdir və onlar bu qanunun ziddinə getməyə qadir deyillər. Qurani-kərimdə buyurulur: *"Gecə də onlar üçün (qüdrətimizə) bir dəlildir. Biz gündüzü ondan sıyırıb çıxardan kimi onlar zülmət içində olarlar. Günəş də (qüdrət əlamətlərimizdən biri kimi) özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmüdür). Biz ay üçün də mənzillər müəyyən etdik. Nəhayət, o (həmin mənzilləri başa vurduqdan sonra) dönüb xurma ağacının qurumuş əyri budağı kimi (hilal şəklində) olar. Nə günəş aya çatar (yetişər), nə də gecə gündüzü ötə bilər. (Günəş, ay və ulduzların) hər biri göydə (öz hədəqəsində, öz dairəsində) üzər".*[88]

---

[87] "Fussilat" surəsi, ayə 11
[88] "Yasin" surəsi, ayə 37, 38, 39, 40

İmam Əli(ə) buyurub: "Sizi üzərində daşıyan yer və sizə kölgə salan göy sizin Rəbbinizə mütidir. Nə sizə acıdıqları, nə sizə yaxınlaşmaq nə də sizdən xeyir umduqları üçün öz bərəkətlərindən səxavət etdirlər. Sadəcə olaraq sizə mənfəət verməyə məmur olduqları üçün bu əmrə müti oldular və mənafeyiniz üçün yaradıldıqlarına görə sizə öz nemətlərindən verməyə davam etdilər".[89]

Hətta heyvanlar belə Allah-təalanın onlar üçün müəyyən etdiyi instinktə tabedir. Bu səbəbdən həyatlarını dəyişməyi və inkişaf etdirməyi bacarmırlar; məsələn, arı kimi. İnsan arını tanıyan vaxtdan bu günədək arı, onun üçün təyin olunmuş həyatı yaşayır və onun üçün müəyyən olunmuş işlə məşğul olur. Qiyamət gününədək bu heyvanda nə bir dəyişiklik, nə də bir inkişaf olmayacaqdır. Həmçinin ipək qurdu, sair həşərat və heyvanlar da kainatın nizamı ilə uyğunluq təşkil edən bir hərəkət vasitəsilə yaşayır.

## İNSANIN HÜRRİYYƏTİ

İnsan kainatın digər məxluqatından onda olan iki meyarla seçilir: *maddi meyarı və iradə meyarı.* İnsan maddi cəhətdən bütün məxluqatla eynidir. Belə ki, o, təyin olunmuş nizama və məcburi hərəkətə tabedir. Məsələn: insan öz valideynini, doğum vaxtını, cinsinin və bədən qurluşunu seçməkdə ixtiyar sahibi deyildir. Həmçinin, insan cisminin fizioloji nizamına da müdaxilə edə bilmir. Bu səbəbdən o, qan dövranı, molekulların hərəkəti, böyrək və ciyərinin bədəndəki daxili fəaliyyətini dəyişməyi və yaxud inkişaf etdirməyi bacarmır. Çünki bütün bunların hamısı insanın iradə və ixtiyarı

---

[89] "Nəhcül-bəlağə" 143-cü xütbə

xaricindədir. Lakin insan sair məxluqlardan ikinci meyarı ilə fərqlənir. Çünki bu meyar, başqa məxluqlarda olduğu kimi bir yığım maddə kütləsi deyil. Bu meyarda Allah ruhundan bir parıltı olduğu üçün insanı daha üstün və daha uca edir. Allah-təala insanın maddi və ruhi tərkibi haqqında Qurani-kərimdə belə buyurur: *"(Ya Məhəmməd!) Xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdi: –Mən palçıqdan bir insan (Adəmi) yaradacağam. Mən onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan ( yaratdığım ruhdan) üfürən kimi ona (hörmət əlaməti olaraq) səcdə edin"*.[90]

İmam Əli(ə) buyurub: "Sonra naqis sifətlərdən münəzzəh olan Allah yerin möhkəm qayalıq və düzənliyindən, saf və şoran torpağından götürüb, onu əmələ gələnədək qarışdırdı, möhkəmlənənədək yoğurdu. Bu qatışıqdan bədən üzvləri və hissələri olan bir surət yaratdı... Sonra ona öz ruhundan üfürdü. Yaddaşından faydalanan, fikirlərindən istifadə edən, bədən üzvlərini özünə xadim edən, ləvazimatından yararlanan, haqq ilə batil arasında mərifəti ilə seçim edən bir insan oldu".[91]

Ruhun təfəkkür və iradə kimi özünəməxsus xüsusiyyətləri olduğu üçün insan bütün məxluqatlardan seçilir. Əgər insan əməlində və özünüidarədə məcburi bir hərəkətə tabedirsə, onda insan təfəkkürünün rolu və onun iradəsinin qiyməti nədir?

Təfəkkür çoxsaylı seçimlərin yarandığı bir vaxt üzə çıxır. İradə isə hər hansı bir işi yerinə yetirmək üçün azadlıq və qüdrətin meydana gəldiyi vaxt olur. Bunu insana bəxş edən Allahdır. Belə ki,ona düşüncə qüdrəti

---

90 "Sad" surəsi, ayə 71,72

91 "Nəhcül-bəlağə" 1-ci xütbə

və işlərini icra etməkdə ixtiyar vermişdir.Bu səbəbdən,

Quran bütün məxluqların Allah əmri qarşısındakı mütiliyi haqqında danışdığı bir vaxtda Allaha ibadət etmək istəməyən və onun əmrinə tabe olmayan böyük bir qism insanı istisna edir. Allah-təala Qurani-kərimdə buyurur: *"(Ey insan!) Məgər göylərdə və yerdə olanların (bütün canlıların), günəşin, ayın və ulduzların, dağların, ağacların və heyvanların, insanların bir çoxunun Allaha səcdə etdiyini görmürsənmi? Bir çoxuna da əzab vacib olmuşdur".*[92]

Hətta, Uca Allah qüdrəti çatmasına baxmayaraq, ona iman gətirmək və onun vücudunu etiraf etmək istəməyən insanı da məcbur etmir. Nə üçün? Ona görə ki, insan bu həyatda öz azadlığından kamil surətdə istifadə etsin. Allah-təala Qurani-kərimdə buyurur: *"Əgər Allah istəsəydi onlar müşrik olmazdılar".*[93]

Digər bir ayədə Allah-təala belə buyurur: *"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi".*[94]

Daha bir ayədə isə buyurulur: *"Biz ona haqq yolu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istər nankor (bu, onun öz işidir)".*[95]

## QƏZA VƏ QƏDƏR

Bəzi insanlar İslam terminlərini doğru anlamamış, Quran ayələrinin və Peyğəmbər(s) hədislərinin yozmasında səhvə yol vermişlər. Məsələn; qəza və qədər, hidayət ayələri və zəlalət ayələri kimi. Onlar belə təsəvvür etmişlər ki, bu, insanın azadlıq və ixtiyarı ilə

---

92 "əl-Həcc" surəsi, ayə 18

93 "əl-Ənam" surəsi, ayə 107

94 "Yunus" surəsi, ayə 99

95 "əl-İnsan" surəsi, ayə 3

uyğunlaşmayan məcburiyyət və məhdudiyyətdir. Biz bu mövzunu araşdırmaq niyyətində deyilik. Sadəcə olaraq, Quran ayələri və Quran terminləri arasında heç bir ziddiyyət və ixtilafın olmamasını qeyd edəcəyik. Quran ayələrinin bəzisinin digər ayələr ilə ziddiyyət təşkil etdiyi anlaşılsa, gərək Quranı deyil, fəhmimiz ittiham edilsin.

*Bir nəfər şamlı İmam Əli(ə)-ın yanına gələrək sual edir: "Şama gedişimiz Allahın qəza və qədəri deyilmi?" İmam Əli(ə) dərhal anlayır ki, sual verən şəxs qəza və qədərin mənasını səhv anlamış və onu insan azadlığı ilə uyğun olmayan bir məcburiyyət və məhdudiyyət kimi dərk etmişdir. İmam Əli(ə) bu sorğuya çox uzun bir cavab verdi. O cavabdan:* **"Ey yazıq, sən qəzanın baş verməsini, qədərin hökmən olmasını gərəkli sayırsan. Belə olsaydı, savab və cəza batil olaraq dinin aradan qaldırılması vacib hesab edilərdi. Halbuki, nöqsan sifətlərdən münəzzəh olan Allah, bəndələrini edəcəkləri əməllərində azad buraxmış və pisliklərdən çəkinmələrini bildirərək qadağa qoymuşdur. Həmin əmr və qadağalar isə bəndənin ixtiyarını məhdudlaşdırmamış, qüdrətini yox etməmişdir. Onlara asan olanı tapşırmış, çətin olanı isə buyurmamışdır..."**[96]

Qədərin lüğəti mənası; hər bir şeyin həddi, miqdarı və qiymətidir.

Qəzanın lüğəti mənası; bir işin öz sahəsində mükəmməl və dürüst icra edilməsidir. Bunu məşhur dilçi Əhməd ibn Faris özünün "əl-Məqayis" adlı kitabında qeyd etmişdir.[97]

---

[96] "Nəhcul-bəlağə", Hikmətli kəlamlar, №78

[97] Şeyx Cəfər Sübhani, "əl-İlahiyyat" , c.1, səh.524, çap 2

Kuleyni İmam Əli ibn Musa Rza(ə)-dan qəza və qədərin tərifini İmamın bu sözləri ilə rəvayət edir: "Qədər;varlıq və yoxluğun planlaşdırılması və onun həddinin qoyulmasıdır. Qəza isə həmin şeyin qəti olaraq baş verməsidir".[98]

Deməli, qədər Allahın kainat və həyatda təyin etdiyi hədd, nizam-intizam, nişanə və qanunlardır. Qəza isə bu nişanələrin, nizam-intizamın və qanunların həqiqətdə bir-biriylə uyğunluq təşkil etməsidir. İmam Əli(ə) buyurur:"(Allah) bizə göstərdiyi kamil tədbir əlamətləri və baş verməsi mütləq olan təqdir nişanənələri ilə ağıllara, düşüncələrə əyan olmuşdur".[99]

*Əsbəğ ibn Nubatə rəvayət edir ki, Əmirəlmöminin Əli(ə) dağılmaq üzrə olan divarın yanından digər bir təhlükəsiz divarın yanına yerini dəyişərkən, o həzrətə dedim: "Ey Əmirəlmöminin, Allahın qəzasından qaçırsan?" İmam Əli(ə) cavabında buyurdu:* "Allahın qəzasından qaçıb, qədərinə sığınıram"[100].

Əgər İmam dağılmaq üzrə olan divarın yanında qalsaydı və divar dağılaraq İmama zərər yetirsəydi, bu qanunun icra edilməsi ilə, Allah qəzasının bir nümunəsi olardı. Lakin İmamın yerini dəyişməsi, insanın salamatlığını və himayəsini təmin edən qanundan istifadə etməsi, Allah qədərinin bir nümunəsidir.

## İRSİYYƏT VƏ TƏRBİYƏ

Müasir elm irsiyyətin insan həyatının istiqamətlənməsində nəinki fizioloji və psixoloji sahədə, həmçinin onun həyat tərzinin bütün sahələrində böyük təsiri olduğunu bildirir. Tərbiyə isə insanın

---

[98] Kuleyni Razi, "Usul-əl-kafi", c.1, səh.158, çap 3

[99] "Nəhcül-bəlağə" 182-ci xütbə

[100] Şeyx Cəfər Sübhani, "əl-İlahiyyat", c.1, səh.503

formalaşmasında və onun məşğuliyyətinin müəyyən edilməsində böyük əhəmiyyət kəsb edir. Bu həqiqət din üçün yenilik deyildir. Din insan azadlığını inkar olunmaması şərtiliə irsiyyət və tərbiyənin onun həyatının formalaşmasında rol oynadığına çoxdan inanmışdır. Belə ki, irsiyyət və tərbiyəvi amillər insanı müəyyən bir həyat tərzi seçməyə vadar etmir. Əksinə, bu məsələdə son qərar insanın öz ixtiyarındadır. İnsan istərsə valideyninin və yaşadığı cəmiyyətin qət etdiyi yolla gedər, istərsə özü üçün başqa bir yol seçər.

Nuh Peyğəmbərin(ə) oğlu imanı öz atasından irsən almadı və atasının prinsiplərinə riayət etmədi. Allah-təala Qurani-kərimdə buyurur: *"Gəmi onları dağlar kimi (yüksək) dalğaların içi ilə apardığı zaman Nuh (gəmidən) aralı olan oğlunu (Kənanı) haraylayıb dedi: Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma! (Oğlu ona) belə cavab verdi: Mən bir dağa sığınaram, o da məni sudan qoruyar. Nuh dedi: Allahın rəhm etdiklərindən başqa, bu gün heç kəs (insanları) Onun əzabından qoruya bilməz! Nəhayət, dalğa, ata ilə oğulun arasına girib onları bir-birindən ayırdı və o da suda boğulanlardan oldu".*[101]

Tarix də həmçinin, insanın öz ailəsinin adət-ənənələrinə, yaşadığı cəmiyyətdəki qayda-qanunlara zidd mövqe seçməsini dəstəkləyən nümunə və məsəllərlə zəngindir. Musəb ibn Umeyr azğın cahiliyyət cəmiyyətində dünyaya göz açmışdı. Lakin o, ailəsinin azğınlığına və cahilliyinə qarşı çıxaraq, İslama ilk iman gətirən yoxsullar və qullar sinfinə birləşdi. Müasir həyatda da kapitalist cəmiyyətində doğulub, burjua

---

[101] "Hud" surəsi, ayə 42, 43

tərbiyəsi görmüş bir çoxlarının sonradan öz cəmiyyətlərinə qarşı çıxaraq üsyançılar sinfinə qatıldıqlarını müşahidə etmək mümkündür. Deməli insan psixalogiyası,əxlaqı, yaşadığı həyat tərzi məsələlərində valideyn və övladlar arasında tam uyğunluq yoxdur. Məsələn, bir çox ailələr pis övlada mübtəla olmuşlar və bir çox ailələr vardır ki, onların əməli saleh övladları olmuşdur!

Carud əl-Əbdi dürüst həyat tərzi keçirən, təqdirəlayiq Peyğəmbər(s) səhabəsi olmuş və Allah yolunda şəhadətə yetişmişdi. Onun Münzər ibn Carud adlı oğlu vardı. İmam Əli(ə) öz xəlifəliyi dövründə ona inanmış və onu bəzi məntəqələrin valisi təyin etmişdi. Lakin bu inamın tam əksi hasil oldu və Münzər əmanətə xəyanət etdi. İmam Əli(ə) məktub yazaraq onu xəyanətinə görə tənqid etmiş və valilikdən kənarlaşdırmışdı. Məktubda yazılanlardan: «...**Sonra deyirəm: –Atanın təmizliyi məni aldatdı. Elə zənn etdim ki, sən də onun yolunu tutacaqsan, izini izləyəcəksən. Lakin sən mənə verdiyin sözünə əməl etmədin. Nəfsinə boyun əydin, axirətinə aid işləri alt-üst etdin. Axirətini viran edib, dünyanı abad edirsən. Dinini bir yana qoyub qohum-qardaşına ehsan edirsən. Əgər sənin haqqında mənə deyilənlər doğrudursa, onda öz dəvən və ayaqqabılarının bağı səndən xeyirlidir...**»[102]

## AZADLIĞIN TƏZAHÜRLƏRİ

Allah-təala insanı azad yaratdığı kimi, onun azad yaşamasını, öz istək və ixtiyarı ilə sərbəst fəaliyyət göstərməsini istəmiş və bir kəsin azadlığının digəri tərəfindən məhdudlaşdırılmasına icazə verməmişdir.

---

[102] "Nəhcül-bəlağə", 71-ci xütbə

Səmavi dinlərin hamısı insan azadlığını etiraf edir və onu qoruyur. İslam dinində də insan öz azadlığından həyatın əksər sahələrində istifadə edə bilər. Onlardan:

*1.Rəy və fikir azadlığı;* Belə ki, hər hansı bir insanın müəyyən bir əqidəni qəbul etməsinə məcbur edilməsi düzgün deyildir. Allah-təala Qurani-kərimdə buyurur:

***"Dində məcburiyyət (zorakılıq) yoxdur".***[103]

***"İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?"***[104]

***"Kim istəyir inansın (iman gətirsin), kim istəyir inanmasın (kafir olsun)".***[105]

İmam Əli(ə) buyurub: **"Qəlb istəmədiyinə məcbur edilərsə, kor olar".**[106]

Məhz İslam dininin bu hökmünə əsasən, yəhudilər və məsihilər öz dinlərini və əqidələrini qoruyaraq müsəlmanlarla birgə yaşamışlar. İnsan İslam ideologiyasının ən mühüm əsaslarından başqa, ikinci dərəcəli bütün məsələlərdə öz azadlığından kamil surətdə yararlanır, məsələn, zərr aləmi kimi. İnsan zərr aləminə iman gətirməsində və yaxud gətirməməsində azaddır. Belə ki, əgər zərr aləmi insan üçün sabit olarsa və insan onun doğruluğuna qane olarsa, iman gətirər. Qane olmasa, iman gətirmədiyi üçün sorğu-sual edilməyəcəkdir. Buna görə də, insanı zərr aləminə iman gətirməyə məcbur etmək doğru deyildir. Habelə din, kainat və təbiət proseslərini insanın öz düşüncəsinə və elminin səviyyəsinə həvalə etmiş, onu məcburiyyət qarşısında qoymamışdır, məsələn, yerin hərəkəti və

---

103 "əl-Bəqərə" surəsi, ayə 256

104 "Yunis" surəsi, ayə 99

105 "əl-Kəhf" surəsi, ayə 29

106 "Nəhcül-bəlağə", Hikmətli kəlamlar, №193

günəşin dövr etməsinə olan etiqad kimi. Lakin orta əsrlərdə fəaliyyət göstərən məsihi kilsələri rəylərinin qəbul edilməsi üçün məsihi cəmiyyətini məcbur edir və bu rəyə müxalif olan hər bir kəsi kafir bilərək öldürürdü.

*2.Söz azadlığı;* Belə ki, insanın həqiqi İslam çərçivəsində istədiyini deməyə və səhv bildiyi hər bir şeyə etiraz etməyə haqqı vardır. İslamın ilkin çağlarında müsəlmanlar bu növ azadlıqdan istifadə edirdilər. Hətta adi bir şəxs belə, xəlifəyə etirazını bildirir və onunla mübahisə edirdi. Hətta adi bir qadın belə, xəlifənin qərarına etiraz edərək, onu verdiyi qərardan daşınmağa məcbur edirdi. Xəlifə Ömərin hakimiyyəti zamanı baş vermiş bu hadisəni Beyhəqi özünün "Əs-sunənul-kubra" adlı kitabında qeyd etmişdir:

*"Ömər ibn Xəttab (Allah ondan razı olsun) Allah-təalaya həmd və səna etməklə xütbəyə başladı və dedi: "Qadınların mehrində çox pul təyin etməyin. Çünki mən Peyğəmbərin verdiyindən və Peyğəmbərin qızı üçün verilən mehrdən çox bir mehri təsəvvür etmirəm. Əks təqdirdə artığı beytülmala qatacağam".*

*Qureyş qadınlarından biri etirazını bildirərək dedi: "Ey Əmirəlmöminin, Allahın kitabına tabe olmaq daha layiqdir, yoxsa sənin sözünə?"*

*Ömər cavab verdi: "Allah-təalanın kitabına tabe olmaq daha layiqdir. Nə olub məgər?"*

*Qadın dedi: "İnsanları qadınların mehrində çox pul təyin etməkdən çəkindirirsən. Allah-təala isə öz kitabında: "Onlardan birinə çoxlu mal vermiş olsanız da, ondan heç bir şey geri almayın"*[107]*, -deyir.*

---

107 "ən-Nisa" surəsi, ayə 20

*Ömər (Allah ondan razı olsun) belə deyir: "Hər bir kəs Ömərdən daha çox bilir".*

*Bu sözü iki, yaxud üç dəfə təkrar edir. Sonra insanlara belə deyir: "Mən sizi qadınların mehrində çox pul təyin etməkdən çəkindirmişdim. İndi isə fikrimdən daşınıram. Hər bir kəs öz malında istədiyini etsin"*[108].

Günlərin birində bir qadın İmam Əli(ə)-ın yanına gəlir və İmamın təyin etdiyi valilərin birindən o Həzrətə şikayət edir. İmam Əli(ə) bu xəbəri eşitdikdə həmin valinin işdən çıxarılması ilə əlaqədar məktub yazır və onu qadına verir.

*Həmdani qəbiləsindən olan İmarənin qızı Sovdə Əmirəlmöminin Əli(ə) haqqında belə deyir: –Allaha and olsun, Əli(ə)-ın hüzuruna bizim sədəqələrimizi yığmaq üçün təyin etdiyi validən şikayət etməyə gəldim. Əli(ə)-ı namaz qılan vəziyyətdə gördüm. O Həzrət məni gördükdə namazdan ayrıldı, böyük mərhəmət, lütf və mehribanlıq hissi ilə mənə tərəf gəldi və dedi:* "Bir ehtiyacın var?"

*O Həzrəti hadisədən xəbərdar etdim. Həzrət ağladı. Sonra isə belə dedi: "Ey Allahım, sən şahidsən ki, mən onlara sənin xəlqinə zülm verməyi əmr etməmişəm".*

*Sonra bir parça dəri götürüb onun üzərinə yazdı:*

"Bağışlayan və mehriban Allahın adı ilə. Artıq sizə Rəbbinizdən aşkar bir dəlil (möcüzə) gəldi. Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın. Yer üzü (peyğəmbərlərin şəriətləri sayəsində) düzələndən sonra orada fitnə-fəsad

---

[108] Hafiz Beyhəqi, "Əs-sunənul-kubra", c.7, səh.233

törətməyin. Əgər siz möminsinizsə, bu (dediklərim) sizin üçün xeyirlidir".[109]

*Bu məktubu oxuyan kimi bizim tərəfdən təyin olunduğun işin öhdəsindən layiqincə gəl. Əgər etməsən bu işi yerinə yetirməyi bacaran bir şəxs gələcəkdir, vəssalam".*

*İmam Əli(ə) yazdığı məktubu şikayətçi qadına verdi.Həmin qadın nəql edir ki,: "Allaha and olsun, İmam yazdığı məktuba möhür vurmadı, heç onu bükmədi də. Məktubu həmin şəxsə çatdırdım. Məktubu oxuduqdan sonra tutduğu mənsəbi tərk etdi"*[110].

Tarixçilər belə rəvayət edirlər:

*"Həris ibn Raşid əs-Sami İmam Əli(ə)-ın düşmənlərindən idi. Bir gün o, İmamın yanına gələrək deyir: –Allaha and olsun ki, mən sənin nə əmrinə itaət etmişəm, nə də arxanda namaz qılmışam.*

*İmam Əli(ə) bu sözdən qəzəblənmədi. Hərisi həbs etməyi və yaxud ona cəza verməyi də əmr etmədi. Əksinə, onu kimin haqlı olduğunu araşdırmaq üçün bəhsə çağırdı. İmam Əli(ə) istəyirdi ki, həqiqəti onun üçün bəyan etsin. Həris İmama belə deyir: –Sabah sənin yanına gələrəm.*

*İmam Əli(ə) onun sözünü qəbul edir. Həris öz tayfasına qayıdır. Səhəri gün isə İmamla bəhs etməyə gəlmir".*[111]

Peyğəmbər(s) və məsum İmamlar(ə) da başqalarının öz rəylərini söyləmələri və tam azad şəkildə söhbət

---

[109] "əl-Əraf" surəsi, ayə 85

[110] Məhəmməd Kazim Qəzvini, "Əli min əl-məhdi ila-əl-ləhdi", səh.269, Beyrut –1982, çap 11

[111] Seyyid Məhəmməd Şirazi, "Əs-səbil ila inhaz əl-muslimin", səh.449

ətmələri üçün şərait yaratmışlar. Söylənilən rəylər İmamların rəyləri ilə ixtilaflı olduqda isə onlar müqabil tərəfi həqiqi və doğru rəylə qane etməyə çalışmışlar. Məhəmməd Peyğəmbər(s) bir ərəbin öz rəyini söyləməkdə çətinlik çəkdiyini gördüyü zaman demişdi: **"Özünü ələ al, mən hökmdar deyiləm, sadəcə elə bir qadının oğluyam ki, o, (acından) quru dəri yeyərdi".**[112]

İmam Əli(ə)-a ümmətin əksəriyyəti beyət etdiyi zaman Abdulla ibn Ömər kimi bəzi səhabələr İmama beyət etməkdən imtina etdilər. Səhabələrin bəzisi İmama onları beyətə məcbur etməyi təklif etdilər, lakin İmam Əli(ə) bu təklifi qəbul etmədi.

Təbəri öz tarixində yazır:

*"Əli(ə) məscidə gəlib və minbərə qalxdı. Onun əynində uzun köynək və başında əmmamə vardı. Çarıqlarını əlində tutmuş, əsaya söykənmişdi. Hamı ona beyət etdikdən sonra Səd ibn əbi Vaqqası gətirdilər. Əli(ə) buyurdu:* –Beyət et.

*Səd dedi: –Hamı beyət etməyənədək mən sənə beyət etməyəcəyəm. Allaha and olsun ki, səndən qorxum yoxdur.*

*İmam buyurdu:* –Əl çəkin ondan. İzin verin getsin.

*Ondan sonra Abdulla ibn Öməri gətirdilər. İmam ona da dedi:* –Beyət et.

*Abdullar –Hamı beyət etməyənədək mən sənə beyət etməyəcəyəm- deyə cavab verdi*

*İmam deyir: –Kimdir sənin himayədarın? Abdulla İmama belə dedi: –Himayədarım yoxdur.*

---

[12] Məhəmməd Baqir Məclisi, "Bihar-ul-ənvar", c.16, səh.229, Beyrut 1983, çap 2

*Malik Əştər İmam Əli (ə)- a dedi : –Mənə icazə ver, onun boynunu vurum.*

*Əli(ə) buyurdu: –Buraxın onu. Onun himayədarı mənəm".*[113]

İmam Həsən ibn Əli Müaviyə ilə sülh bağladıqdan sonra onun səhabələrinin əksəriyyətini azad etdi. Siyuti deyir: *–İmamın səhabələrindən bəzisi ona (yəni İmama). "Ey möminlərin arı", –deyə müraciət edirdilər. İmam Həsən isə onlara deyirdi:* **"Ar Cəhənnəm odundan xeyirlidir".**

*Bir nəfər İmama belə dedi: "Salam olsun sənə, ey möminləri rüsvay edən!"*

*İmam isə ona deyir:* **"Mən möminləri rüsvay etməmişəm . Sadəcə olaraq mən, sizi hakimiyyətə xatir öldürmək istəmədim".**[114]

*3.İş və fəaliyyət azadlığı;* İslam insana iş görmək və fəaliyyət göstərmək üçün tam azadlıq vermişdir. Belə ki, İslam başqalarının azadlığına, onların hüquqlarına və yaxud ümumi mənfəətə zərər gətirməmək şərti ilə insanın fərdi mülkiyyətinə, ticarət əlaqələrinə və ictimai fəaliyyətinə qadağa qoymur. İslam insanların azadlıqlarının əllərindən alınmasına, onları müəyyən bir işə və yaxud istəmədikləri mövqeyə məcbur edilmələrinə icazə vermir. İmam Əli(ə) buyurub: **"Mənim insanları istəmədikləri bir şeyə məcbur etməyə haqqım yoxdur".**[115]

---

[113] Məhəmməd Cərir Təbəri, "Tarix-ul-uməm vəl-muluk", c.3, səh.451

[114] Cəlaləddin əs-Siyuti, "Tarix-ul-xuləfa", Məhəmməd Məhyaddin Əbdul-Həmidin təhqiqi

[115] "Nəhcül-bəlağə" 208-ci xütbə

## CƏZA NƏ ÜÇÜNDÜR?

Bəzi şəxslər İslam dininin zina, spirtli içki və oğurluq kimi bir sıra günahlara təyin etdiyi cəza tədbirləri haqqında soruşur və belə fikirləşirlər ki, bu, insan azadlığını məhdudlaşdırmaq, onun istək və ixtiyarına təcavüz etmək deməkdir. Buna cavab olaraq aşağıdakıları qeyd edirik:

*Birinci:* Allah-təalanın insana qadağan etdiyi haramlar onun həyatına və rahatlığına zərərli və təhlükəli olan amillərdir. Allah-təala insana öz nəfsinə əziyyət verərək onu bədbəxt etməsinə, əsla razı olmaz. Qurani-kərimdə buyrulub: *"Öz əlinizlə özünüzü təhlükəyə atmayın".*[116]

*İkinci:Bir çox* hallarda bu günahlar öz təsirini insanın azadlığı ilə yanaşı, digərlərinin azadlığına edilən təcavüzdə göstərir. Məsələn, oğurluq, zina, hətta spirtli içkilərin qəbulu belə başqalarının hüquqlarına edilən təcavüzə səbəb olur. Bu səbəbdən İslam dini, başqasının rahatlığına təcavüz etməyə səbəb olan hər bir şeyi insana qadağan edir.

*Üçüncüsü:* İnsanın özü tərəfindən özünə vacib etdiyi bir şey haqqında sorğu-sual edilməsi, heç də onun azadlığına edilən təcavüz deyildir. Məsələn: Sən məni sabah ziyarət etməkdə və yaxud etməməkdə azadsan. Lakin sən, sabah gələcəyin haqqında mənə vəd versən və verdiyin vədə əməl etməsən, mən səni "nə üçün gəlmədin?" deyə sorğu-sual etməyə tamamilə haqlıyam. Bu halda görəsən, sənin mənə "ona görə ki, mən azadam" deyə cavab verməyin düzgünmüdür? Doğrudur, sən azadsan. Lakin sən, özün-özünü verdiyin vədlə cavabdeh

---

116 "əl-Bəqərə" surəsi, ayə 195

etdin. Bu səbəbdən İmam Əli(ə) deyir: "İnsan vəd verənədək azaddır".[117]

Digər bir misala nəzər salaq; Fəhlə sənin evində işləyib, yaxud işləməyəcəyində tam azaddır. Lakin o, sənin evində işləyəcəyi barədə səninlə ittifaq bağlayarsa, işinə cavabdehlik daşıyır və öz ixtiyarı ilə özünü bu işə cavabdeh edir. Həmçinin də insan, İslam dininə iman gətirib qəbul etdiyi zaman, özünü bu dinin qayda-qanununa tabe olmağa cavabdeh edir. Sanki o, vacib əməlləri yerinə yetirmək və haram əməllərdən çəkinmək barədə Allahla ittifaq bağlayır. Madam ki o, kənar bir qüvvənin təsiri olmadan öz ixtiyarı ilə İslamı qəbul edibsə, onun buyurduğu qayda-qanunlara riayət etməyə borcludur. Əgər bu qayda-qanunlara müxalif olaraq spirtli içkilər içərsə, yaxud zina edərsə məsuliyyətə cəlb ediləcək və sorğu-sual olunacaqdır. Lakin İslam dini məsihiləri spirtli içkilər içdiklərinə və orucu tərk etdikləri üçün, məcusiləri isə öz məhrəmləri ilə evləndikləri üçün sorğu-sual edirmi? Təbii ki, bu dünyada onları etdiklərinə görə sorğu-sual etmir. Çünki onlar İslam dinini qəbul etməyiblər. Axirətə gəldikdə o, tam başqa bir mövzudur.

## İNSAN NECƏ KÖLƏ EDİLİR?

Allah-təalanın insanı azad yaratdığını, öz dini və şəriəti ilə insan azadlığını bu dünyada qoruduğunu bildikdən sonra *"insanın azadlığını kim əlindən alır və kim onu köləliyə məcbur edir"* problemini bilməyimiz lazımdır. Görəsən dinin və xüsusilə, "Nəhcul-bəlağə"nin

---

[117] "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, №336

insan azadlığını müsadirə edən sahələrdəki mövqeyi hansıdır?

*1.İstək və şəhvət;* İnsanın istək və şəhvəti onun ağlına və mənliyinə müxalif olan bir çox şeyləri əmr edir. Əgər insan şücaətli olmasa istəklərinin təsiri altına düşəcək, ona tabe olacaq və şəhvətinə müqavimət göstərməyi bacarmayaraq onun qulu olacaqdır. İmam Əli(ə) buyurub:

**"Dünya bir kəsin gözündə əzəmətli görünərsə və qəlbində yuva salarsa, Allah-təalanı ona unutdurar və o, dünyaya bağlanaraq onun qulu olar".**[118]

**"Şəhvət onun ağlını korlamış, dünya qəlbini öldürmüş, nəfsi isə dünyaya valeh olmuşdur. O, dünyanın və bu dünyaya malik hər bir kəsin quludur. Nə qədər dünya var, ona meyl edər və nə qədər ki, dünya ona yaxınlaşar, o da dünyaya doğru gedər".**[119]

**"İstəklərin səni qul etməsin, Allah səni azad yaratmışdır".**[120]

**"Kim nəfsani istəklərini tərk edərsə, azad olar".**[121]

*2.Kor təqlid;* Belə ki, insan başqalarının müəyyən bir əməli yerinə yetirdiklərini və müəyyən bir istiqamətə yönəldiklərini görür, öz təfəkkürünə, seçiminə, iradə və azadlığına heç bir fürsət vermədən onları izləməyə, onlara təqlid etməyə tələsir.

*3.Başqalarının gücü və hakimiyyəti;* Belə ki, onlar insana öz azadlığından yararlanmağı qadağan edərək, ona öz rəylərini və qanunlarını təlqin edirlər. İmam Əli(ə)

---

118 "Nəhcül-bəlağə" 160-cı xütbə
119 "Nəhcül-bəlağə" 109-cı xütbə
120 Əbdul-Vahid əl-Amədi, "Ğurərul-hikəm və durərul-kəlam"
121 Əbdul-Vahid əl-Amədi, "Ğurərul-hikəm və durərul-kəlam"

deyir: "Tağutlar onları kölə etmiş, alçaldaraq əzab vermiş və onlara zəhər içirtmişlər".[122]

İslam dini bu problemi hər iki tərəfdən həll edir.Həm zalim hakimin insanların hüquqlarını pozmasının qarşısını alır, həm də zülmə məruz qalmış şəxsi oz azadlığını tələb etməyə sövq edir, onu zalimə təslim və müti olmaqdan çəkindirir.

Qeyd olunan birinci tərəf haqqında İmam Əli(ə) buyuryb: **"Ən pis adam insanların ondan şərrinə görə qorxduqları kəsdir".**[123]

İmam Əli(ə) Malik Əştərə yazdığı əhdnamədə deyir: **"Xalqla xoş rəftar etməyi özünə adət etdir. Onları sevməyi, onlara lütf etməyi xasiyyətə çevir. Onlar yeməklərini, içməklərini özü üçün qənimət bilən yırtıcı heyvan olma. Çünki xalq iki qismdir: bir qismi sənin din qardaşın, o biri qismi isə yaradılışda sənə oxşardır".**[124]

İmam Əli(ə) başqa bir yerdə belə buyurur: **"Övladlarınızın əxlaqı sizin əxlaqınız kimi olsun deyə onlara güc tətbiq etməyin. Çünki onlar sizdən fərqli olaraq başqa zamanda doğulmuşlar".**[125]

İkinci tərəfi isə Allah-təala onları azadlıqlarından məhrum edən kəsə qarşı müqavimət göstərməyərək təslim olduqları üçün sorğu-sual edəcəkdir. Qurani-kərimdə buyurulub:

***"Məlaikələr öz nəfslərinə zülm edənlərin (Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin) canlarını alarkən (onlara) deyəcəklər: Siz (hicrət zamanı) nə***

---

[122] "Nəhcül-bəlağə" 192-ci xütbə

[123] Əbdul-Vahid əl-Amədi, "Ğurərul-hikəm və durərul-kəlam", c.1, səh.406

[124] "Nəhcül-bəlağə" 53-cü xütbə

[125] İbn Əbil-Hədid "Şərhu Nəhcul-bəlağə", c.20, səh.267

*vəziyyətdə idiniz? Onlar söyləyəcəklər: Biz yer üzərində zəif (aciz) kəslər idik. (Mələikələr də onlara) Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz? – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. O necə də pis yerdir".*[126]

İmam Əli(ə) buyurub: "Özündən qeyrisinin qulu olma. Allah səni azad yaratmışdır".[127].

"Ey insanlar! Adəm qul və yaxud kölə kimi doğulmadı. Bütün insanlar azaddırlar".[128]

İmam Hüseyn(ə)-ın inqilabının şüarlarından biri də: "Dünyanızda azad olun!"[129] –şüarı idi.

İmam Sadiq(ə) buyurub: "Hər şeyə qadir və uca Allah möminin bütün işlərini onun öz öhdəsinə buraxmış və onun zəlil olmasını istəməmişdir". *"Şərəf-şan (qüvvət və qələbə) yalnız Allaha, onun Peyğəmbərinə və möminlərə məxsusdur"* [130] , –deyən Allah kəlamını eşitməmisən? Mömin güclü olar, zəlil olmaz. Həqiqətən də, mömin dağdan daha güclüdür. Çünki külüng vasitəsilə dağdan nəsə qoparmaq olar, ancaq möminin dinindən heç nə qoparmaq mümkün deyildir".[131]

## "NƏHCUL-BƏLAĞƏ"DƏ MƏSULİYYƏT ANLAYIŞI

İmam Əli(ə) "Nəhcul-bəlağə"də buyurub: "Allahın bəndələri və şəhərləri barəsində Allahdan çəkinin, çünki yerlərə və heyvanlara belə cavabdehsiniz".[132]

---

[126] "ən-Nisa" surəsi, ayə 97

[127] "Nəhcül-bəlağə" 31-ci xütbə

[128] Məhəmməd Baqir əl-Mahmudi, "Nəhcus-səadə fi mustədrək nəhcil-bəlağə" c.1, səh.198, Beyrut

[129] İbn Tavus, "Əl-luhuf fi fətla ət-Tufuf", səh.52, 1950-ci il, çap 2

[130] "əl-Munafiqun" surəsi, ayə 8

[131] Şeyx Kuleyni ər-Razi, "Əl-kafi", c.5, səh.63

[132] "Nəhcül-bəlağə" 167-ci xütbə

## ÜMMƏTİN FACİƏLİ VƏZİYYƏTİ

İslam ümməti bu əsrdə çox pis və faciəli bir vəziyyətdə yaşayır. Ümmətin tərəqqi özülü, onun dirçəliş və ehtiramının mənbəyi olan İslam, həyat səhnəsindən uzaqlaşdırılmış, kitab küncündə, alim sinəsində həbs edilmiş, adət-ənənə və təqlid çərçivəsində mühasirəyə alınmışdır.

Ümmət böyük sərvətlərə və səmərəli ərazilərə malik olmasına baxmayaraq, bu ümmətin xalqları bədbəxtlik və yoxsulluq içində yaşayır. Geridə qalma bu ümmətin həyatındakı bütün sahələri bürümüş və ona hakim kəsilmişdir. Acınacaqlı vəziyyət, fəsad, yoldan azma halı bu ümmətin hər bir övladını və gələcək nəsillərin taleyinin sonudur. Siyasi özbaşınalıq, təzyiq, terror, insan hüquqlarına edilən təcavüz və azadlığın məhdudlaşdırılması İslam ümmətinin əksər xalqlarının həyatında yaşanan durumdur. Yaşadığımız bu acınacaqlı durumda insanların mövqeləri arasında axtarış aparsaq, onların aşağıdakı mövqelərdə olduqlarını görərik:

*Etinasızlıq;* Bu mövqe ümmətin əksər fərdlərinə şamildir. Belə ki, hər bir fərd yalnız öz mənfəətini fikirləşərək gənc yaşlarında təhsilini tamamlamağa çalışır. Sonra isə təhsilini ali səviyyədə davam etdirmək üçün göndəriş gözləyir. Bu təhsili tamamladıqdan sonra, yaxşı vəzifə, təmtəraqlı ofis, sonuncu model avtomobil və gözəl həyat yoldaşı axtarmağa başlayır. Yaxud ticarət sahəsinə üz tutaraq, bir dükanın ardınca digərini açır, bir imarətin yanında digərini ucaldır, dadlı yeməklər, saf içkilər və təmiz hava ilə nəşələnir. Ümmətin ağrı-acısı, vətənin acınacaqlı durumu və cəmiyyətin vəziyyəti onu heç maraqlandırmır.

Sən ümmətin əksər ərazilərində yaşanan bu kimi həyat tərzi ilə, düşüncəsində, yalnız yeyib-içmək olan və gələcəkdə hansı şəraitdə yaşayacağı onu maraqlandırmayan heyvanların həyatı arasında böyük fərq görməyəcəksən. Bostana və yaxud əkinə bir inək bağlasan, görəsən bu inək bostanın sahəsi, əhatə dairəsi və məhsulu ilə maraqlanacaqmı? Əsla! İnək yeyib-içməyi və ləzzəti ilə maraqlanan hər şeyə biganə insan kimi yalnız sənin ona verdiyin otla maraqlanacaqdır.. Bu iki məxluq arasında o qədər də böyük fərq görürsənmi?

İmam Əli(ə) "Nəhcül-bəlağə"də bu heyvani mövqeyə işarə etmiş və belə bir etinasız mövqeyə etirazını bildirərək buyurmuşdur:

**"İstəsəm mən də yağ-bal taparam, buğda çörəyinin xalisini yeyərəm, ipək paltar geyərəm. Ancaq nəfsimin istəyinin mənə üstün gəlməyi, məni ləzzətli yeməklər yeməyə çəkməyi heç mümkündürmü? Hicazda, yaxud Yəmamədə neçə gündür doyunca yeməmiş yoxsullar olduğu halda, mən necə qarındolusu yemək yeyə bilərəm? Ətrafımda ac qarınlar, susuzluqdan ciyəri yananlar olduğu halda, mən toxqarına necə yata bilərəm? Dərdi-qəmi şirəli otları yeməkdən başqa bir işi olmayan, otluqda yaxud zibillikdə bir şey tapıb yeməkdən başqa heç nə düşünməyən, sahibinin məqsədindən xəbəri də olmayan bir heyvan deyiləm".**[133]

**"Ləzzətdən doymayan, nəfsin istəyinə tam təslim olan və mal-dövlət yığmağa meyl salan şəxs, əsla dinin keşikçisi ola bilməz. Belə bir şəxsin ən oxşar bənzəri, yalnız heyvandır".**[134]

---

[133] "Nəhcül-bəlağə" 45-ci xütbə

[134] "Nəhcül-bəlağə" 147-ci xütbə

*Mənfi (passiv) qayğı;* Bir qism insanlar da vardır ki, onlar ümmətdə yaşanan geridə qalmanı dərk edir və ümmətin qarşılaşdığı faciəli vəziyyətdən təsirlənirlər. Sadəcə olaraq, onlar məsuliyyəti başqa bir məchul şəxsin üzərinə qoyur, bu məsuliyyəti daşımaqda özlərinə bir pay düşmədiyini fikirləşir və özlərini ümmətdə bir dəyişiklik etməyə səy göstərmirlər. Belə insanın məsuliyyəti özünü islah etməklə tamamlanır. O, yalnız namazını qılır, şəri hüquqları yerinə yetirir və haramlardan uzaqlaşır. Lakin ümmətin acınacaqlı durumuna gəldikdə isə o: **"Heç kəsdə Allahda olan miqdarda qüvvət və qüdrət yoxdur", "Həqiqətən, biz Allahınıq (Allahın bəndələriyik) və (öləndən sonra) ona tərəf (onun dərgahına) qayıdacağıq"**,–deyə təkrarlayır və özünün şəxsən bu yolda nicat tapması üçün Allaha həmd səna edir.

Görəsən, insan, yalnız özünü islah etmək üçünmü cavabdehlik daşıyır? Hər hansı bir insan özünü islah etdikdən sonra bütün dünya pis vəziyyətə düşdükdə belə, bu onu maraqlandırmamalıdırmı? Görəsən, Allah-təala qiyamət günü, fəqət namaz, oruc və şəxsi işlərdə sorğu-sual edib və hansısa bir ictimai əməl, yaxud islahat işləri haqqında heç nə tələb etməyəcəyi doğrudurmu? Suala cavab aşağıdakı bölümdə açıqlanacaqdır.

*Məsuliyyət;* İnsan özünü baş verən hadisələr qarşısında məsuliyyətli hesab etməli və yaşanan durumda islahat işləri aparmaq üçün özünü cavabdeh bilməlidir və Allah-təala qiyamət günü onun cəmiyyətdəki rolundan və həyatdakı məsuliyyətindən sorğu-sual edəcəyinə inanmalıdır. Budur, aşağıda qeyd olunanları vacib edən doğru mövqe:

1.Əgər Allah-təala bizdən xəlq olunmağımızın və yer kürəsi üzərində yaşamağımızın hədəfini soruşarsa,

:avabı elə Allah-təalanın özü tərəfindən Qurani-kərimin ıyələrində açıq-aşkar izah etdiyini görərik. Bu ayələr yer :ürəsi üzərində yaşamağımızın hədəfini bu kürədə islahat ıparmaqda görür.

Allah-təala bəşəriyyətin atası Adəm(ə)-ı xəlq :dərkən mələklərə belə deyir: *"Mən yer üzündə bir xəlifə varadacağam".*[135]

Başqa bir ayədə isə: *"Verdiyi nemətlərlə sınamaq içün sizi yer üzünün varisləri təyin edən Odur".*[136]

Digər bir ayədə isə belə buyurur: *"O, sizi yerdən (torpaqdan) yaradıb orada sakin etdi".*[137]

Əgər biz Allahın yer üzərindəki xəlifələri, ıümayəndələri və təmsilçiləriyiksə, onda yer üzərində baş 'erənlər qarşısında məsuliyyət daşımırıqmı? Əgər tacir öz lükanında onu əvəz edəcək bir nəfər təyin edərsə, lükanda baş verənlərə təyin etdiyi şəxsi sorğu-sual tməkdə haqlı deyilmi? Əgər bir nəfər öz işlərinin nəsuliyyətini başqa bir şəxsə tapşırarsa, görəsən apşırılmış şəxsdən onun işlərində islahat aparmasını və ərəri dəf etməsini gözləmirmi?

Eynilə də, Allah-təala bizi yer üzərinin xəlifələri əyin etdiyi zaman bizdən, yer kürəsində islahat işləri ;örməyimizi və fəsadı aradan aparmağımızı tələb edir. )urani-kərimdə buyurulub:

*"Onların ardınca sizi yer üzünün varisləri təyin :tdik ki, görək özünüzü necə aparacaqsınız?"*[138]

---

[135] "əl-Bəqərə" surəsi, ayə 30
[136] "əl-Ənam" surəsi, ayə 165
[137] "Hud" surəsi, ayə 61
[138] "Yunis" surəsi, ayə 14

*"Barı, sizdən əvvəlki nəsillərin ağıl və fəzilət (hünər) sahibləri yer üzündə fitnə-fəsad törətməyi qadağan edəydilər..."*[139]

*"O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, (onlara bir yer versək) namaz qılar, zəkat verər, (insanlara) yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər".*[140]

Yaradılışımızın hədəfini yer kürəsində islahat işləri aparmaqdan ibarət olduğunu bildikdən sonra, görəsən, yer kürəsində baş verən acınacaqlı halların müqabilində müşahidəçi və yaxud tamaşaçı mövqeyi seçməyimiz nə dərəcədə doğrudur?

İmam Əli(ə) buyurmuşdur: "Allahın bəndələri və şəhərləri barəsində Allahdan çəkinin, çünki yerlərə və heyvanlara belə cavabdehsiniz"[141].

2.Allah-təala İslam dinini bəşəriyyətin həyatını cəhalət və azğınlıq bədbəxtliyindən xilas etmək üçün göndərdi. Görəsən, bu din fərdi məşğuliyyət həcmindədir, yoxsa həyatın bütün sahələrini tənzimləmək üçün göndərilib?

Heç bir müsəlman şübhə etmir ki, Allah-təala İslamı bütün dünyaya rəhbərlik etmək və bəşəriyyəti istiqamətləndirmək üçün göndərmişdir. Qurani-kərimdə buyurulub:

*"Onu (İslamı) bütün dinlərin fövqündə göstərmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur".*[142]

---

139 "Hud" surəsi, ayə 116
140 "əl-Həcc" surəsi, ayə 41
141 "Nəhcül-bəlağə" 167-ci xütbə
142 "əl-Tövbə" surəsi, ayə 33

*"And olsun ki, biz peyğəmbərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsin".*[143]

*"(Ya Məhəmməd") Həqiqətən, Biz sənə Quranı haqq olaraq nazil etdik ki, Allahın sənə göndərdiyi (öyrətdiyi, bildirdiyi) ilə insanlar arasında hökm edəsən".*[144]

Lakin İslam həyatda necə tətbiq olunmalıdır? Görəsən, bu Allahın birbaşa müdaxiləsi ilə olmalıdır? Görəsən, Allah-təala öz mələkələrini və cinlərini göndərərək onların vasitəsilə İslamı tətbiq etməli və onların vasitəsilə həyatın gedişatında İslamı reallaşdırmalıdır. Yoxsa, Allah-təala İslam dininə əməl etməyən hər bir kəsi həlak etməlidir?

Allah-təalanın, bilavasitə bu işə müdaxilə etməsi həyatın qiymətini itirərdi. Allah-təala bütün bəşərin öz azadlıqlarından kamil surətdə yararlanacaqları bu dünyanı bəla və imtahan meydanı olmaq üçün xəlq etdi. Allah-təala istəyir ki, din bəşərin özü tərəfindən tətbiq olunsun və dinə əməl edən hər bir fərd öz əməli, fəaliyyəti və çalışqanlığı ilə bu yolda addımlasın. Kommunizm və kapitalizm ideolgiyasının təbliği və tətbiqi yolunda çalışan şəxsləri və cihazları olduğu kimi, müsəlmanlar da İslamın təbliği və tətbiqi yolunda səy göstərməlidirlər.

Allah-təala İsrail oğullarına öz düşmənləri ilə müharibəyə qalxmalarını əmr etdiyi zaman onlar Allahın

---

143 "əl-Hədid" surəsi, ayə 25

144 "ən-Nisa" surəsi, ayə 105

özündən müharibəyə qalxmağı tələb edirlər. Allah-təala onlara nə cavab verdi? Onların sonu necə oldu..?

*"Ey camaatım! Allahın sizin üçün əzəldən (vətən) müəyyən etdiyi müqəddəs torpağa daxil olun, geri dönməyin (düşməndən qorxub qaçmayın və ya dininizdən dönməyin), yoxsa zərər çəkmiş halda geri dönərsiniz.*

*Onlar dedilər: –Ya Musa, orada nəhəng (qüvvətli) adamlar (Ad qövmünə mənsub Əmaliqə tayfası) vardır. Onlar oradan çıxmayınca, biz ora girməyəcəyik. Əgər onlar oradan çıxsalar, biz ora daxil olarıq.*

*(Allahdan) qorxanlardan Allahın nemət verdiyi iki nəfər dedi: Onların üstünə (qəflətən) qapıdan (yaşadıqları şəhərin qapısından) girin. Əgər (qapıdan) girsəniz, onlara mütləq qələbə çalarsınız. Əgər möminsinizsə, Allaha təvəkkül edin.*

*(İsrail oğulları) dedilər: Ey Musa, nə qədər ki, onlar oradadırlar, biz ora girməyəcəyik. Sən və Rəbbin gedib onlarla vuruşun. Biz isə burada oturacağıq.*

*(Musa) dedi: Ey Rəbbim, mənim yalnız özümə və qardaşıma (Haruna) gücüm çatar (sözüm keçər). Sən bizi bu günahkar və azğın camaatdan ayır.*

*(Allah Musaya) buyurdu: Artıq ora (müqəddəs torpaq) qırx il müddətinə onlara haram edildi. Onlar olduqları yerdə (Tih səhrasında) sərgərdan gəzib dolaşacaqlar. O günahkar (və azğın) camaatın halına acıma".*[145]

Əgər Allah-təalanın İslam dinini bəşər tərəfindən tətbiq edilməsi üçün göndərdiyinə və bu dinin həyatda tətbiq edilməsi işinə bilavasitə müdaxilə etmədiyinə

---

[145] "əl-Maidə" surəsi, ayə 21, 22, 23, 24, 25, 26

inanırıqsa, onda İslamın həyatda tətbiq edilməsi işinin möminlərin üzərindəki bir məsuliyyət olduğunu danmamalıyıq. Allah-təala Qurani-kərimdə buyurur:

*"(Ey müsəlmanlar!) Beləliklə də, sizi orta (seçilmiş və ədalətli) bir ümmət etdik ki, insanların əməllərinə (Qiyamətdə) şahid olasınız, Peyğəmbər də sizə şahid olsun..."*[146]

*"(Ey müsəlmanlar!) Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiniz".*[147]

Bununla belə məlum olur ki, məsuliyyətimiz İslama fərdi şəkildə əməl etmək çərçivəsindən, İslamın prinsiplərinə uyğun tərzdə olmaq şərtilə ictimai dəyişiklik və ümumi islahat etmə məsuliyyətinə keçir.

3.Görəsən, dindarlar yalnız namaz və oruclarına riayət edərək , cəmiyyətdə heç bir ictimai rol kəsb etməsələr və yaxud islahat işi görməsələr nəticə necə olacaqdır?

Əgər dindarlar tərəfindən belə bir etinasızlıq olunarsa, şübhəsiz ki, nəticə cəmiyyətdə batil və fəsadın artması olacaqdır. Bu hal isə öz növbəsində cəmiyyətin zalım və xəbis insanlar tərəfindən idarə olunmasına zəmin yaradacaqdır. Çünki ictimai həyatın məntiqi budur. Qurani-kərimdə buyurulub: *"Əgər Allah insanların bir qismini digər bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı".*[148]

Zalım və xəbis insanlar hakimiyyəti ələ aldıqdan sonra, görəsən, namaz qılanlar, oruc tutanlar onların

---

[146] "əl-Bəqərə" surəsi, ayə 143
[147] "Ali İmran" surəsi, ayə 110
[148] "əl-Bəqərə" surəsi, ayə 251

zülm və təzyiqindən amanda qalacaqlarmı? Yoxsa onların ilk qurbanları olacaqlar?

Tarixi təcrübələr və keçmişlərdə baş vermiş hadisələr onu göstərir ki, xəbis insanlar cəmiyyətin idarə olunmasını əllərinə keçirdikdən sonra heç də günahsızlarla xoş rəftar etmir, namaz qılanları isə tam azad şəkildə və rahatlıqla namazlarını yerinə yetirməyə imkan vermirlər.

Belə halda əlac nədir? Bu əlacı axtarmağa düçar olmamışdan əvvəl özümüzü qorumalıyıq. Bu isə zülm və fəsadın bizə hakim kəsilərək, hətta fərdi vacibatlarımıza belə riayət etməyimizə mane olmaması üçün ona qarşı mübarizə aparmağımızla tamamlanır. Budur, dinin bizə təqdim etdiyi həll. Allah-təala Qurani-kərimdə buyurur: **"Sizdən(içərinizdən) təkcə zalımlara toxunmayacaq(pis əməlləri müqabilində hamya üz verə biləcək) bəladan qorxun".**[149]

İmam Əli(ə) deyir: **"Yaxşılığa əmr etməyi, pislikdən çəkindirməyi tərk etməyin. Əgər etsəniz, sizin pisiniz sizə rəhbərlik edər. Sonra etdiyiniz pisliyin əvəzində dua etsəniz də bir xeyri olmaz".**[150]

**"Ey insanlar, haqqa yardım etməkdə bir-birinizdən ayrılmasaydınız, sizə bərabər olmayanlar sizi məğlub etməyə çalışmayacaqdılar, məğlub etdiyiniz adamlar isə qüvvə əldə edə bilməyəcəkdilər".**[151]

4.Din, açıq-aşkar cəmiyyətdəki pis vəziyyəti dəyişməyi və islahat yolunda iş görməyi vacib bilir. Yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək şəriətin vacib buyurduğu əməllərdəndir.Onun əhəmiyyəti isə heç

---

[149] "əl-Ənfal" surəsi, ayə 25

[150] "Nəhcül-bəlağə" 47-ci xütbə

[151] "Nəhcül-bəlağə" 166-cı xütbə

də namaz və orucdan az deyildir. Allah-təala Qurani-kərimdə buyurur:

*"Onları yubadıb saxlayın, çünki sorğu-sual olunacaqlar".*[152]

*"(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun. Bunlar (bu camaat) həqiqətən, nicat tapmış şəxslərdir".*[153]

Peyğəmbər (s) buyurub: "Hər biriniz qoruqcusunuz və hər biriniz qoruduğunuzun məsuliyyətini daşıyırsınız".[154]

İmam Əli(ə) "Nəhcul-bəlağə"də buyurur: "Allah cahillərə elm öyrənmələrindən daha çox alimlərə elm öyrətmələrini əhd etmişdir".[155]

"Amma bunu da bilin ki, and olsun toxumu əkənə, insanı yaradana, bu cəmiyyət beyət üçün yığılmasaydı, zalımın doyub zülm etməsi, məzlumun ac qalması haqqında Allahın ariflərdən aldığı əhdü-peyman olmasaydı xilafət dəvəsinin yüyənini üstünə atardım".[156]

Həmçinin, din ətrafda baş verən cinayətləri sakit vəziyyətdə müşahidəçi kimi izləyən şəxsi həmin cinayətlərin bir iştirakçısı hesab edir. İmam Məhəmməd Baqir(ə)-dan belə rəvayət edirlər: "Allah Şueyb peyğəmbərə vəhy edərək bildirir ki, mən sənin qövmündən yüz min nəfərə əzab verəcəyəm. Onlardan qırx min nəfəri pis, xəbis insanlar, altmış min nəfəri isə yaxşı insanlardır. Şueyb deyir ki, ey Rəbbim, qırx min

---

152 "əs-Saffat" surəsi ayə 24

153 "Ali İmran" surəsi, ayə 104

154 "Səhih Muslim" 3-cü cild, səh.1459

155 "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, №478

156 "Nəhcül-bəlağə" 3-cü xütbə

nəfər pis insanlardır, bəs altmış min nəfər yaxşı insanların günahı nədir? Allah-təala belə buyurur: Çünki onlar günahkarların əməlinə göz yumdular və mənim qəzəbimə xatir qəzəblənmədilər".[157]

İmam Hüseyn(ə) babası Rəsulallah(s)-dən belə rəvayət edir: "Kim Allahın haramını halal edən, Allahın əhdini pozan, Rəsulallah(s)-in sünnəsinə müxalif olan, Allah bəndələri arasında günah və təcavüzkarlıqla hökm sürən zalım hakim görərsə və onun etdiklərini nə əməli, nə də sözü ilə dəyişməzsə, Allah, həmin şəxsi zalım hakimin daxil olacağı yerə (Cəhənnəmə) daxil edər".[158]

İmam Əli(ə) buyurub:

"Bir tayfanın etdiyindən razı olan onlardan sayılar".[159]

"Həqiqətən, insanları razılıq və qəzəb cəm edir. Səmud tayfasından bir nəfər dəvəni kəsdi. Ancaq onların hamısı dəvənin kəsilməsinə razı olduqları üçün Allahın əzabı onların hamısına aid oldu. Allah Quranda belə buyurur: "Onlar (dəvəni) tutub kəsdilər, sonra da (əzab qorxusu ilə) peşman oldular".[160]

"Nöqsan sifətlərdən münəzzəh olan Allah sizin də tanıdığınız keçmiş toplumları ancaq gerçəyi və doğrunu buyurmağı, pisliklərdən çəkindirməyi unutduqları üçün lənətləmişdir".[161]

---

[157] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", c.12, səh.386, Beyrut –1983, çap 2

[158] Baqir Şərif əl-Qırşi, "Həyatul İmamil-Huseyn", c.3, səh.80, Nəcəf Əşrəf –1976, çap 1

[159] "Nəhcül-bəlağə", Hikmətli kəlamlar, №154

[160] "Nəhcül-bəlağə" 201-ci xütbə

[161] "Nəhcül-bəlağə" 192-ci xütbə

## NƏHCÜL-BƏLAĞƏDƏ CİHAD ANLAYIŞI

İmam Əli(ə) "Nəhcül-bəlağə"də buyurub: "Həqiqətən, cihad Allahın xüsusi bəndələri üçün açdığı Cənnət qapılarından biridir. Cihad - təqva libası, Allahın möhkəm və sarsılmaz zirehidir. Kim onu bilərəkdən tərk edərsə, Allah o şəxsə zillət libası geyindirər, bəla verər, onu alçaqlıqla zəlil edər, cihadı tərk etdiyi üçün haqq ondan uzaqlaşar, məşəqqətə düçar olar və ədalətdən məhrum olar".[162]

İslam şəriətinin mənbələrindən olan Qurani-kərim və peyğəmbər (s) sünnəsinə diqqət yetirən hər bir şəxs, orada cihada böyük əhəmiyyət və diqqət göstərildiyinin şahidi olur. Qurani-kərimdə cihad haqqında qeyd edilən, təqribən 40-a qədər ayə vardır, onlardan:

*"Ey peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran!"*[163]

*"(Ey möminlər") Ağırlı-yüngüllü (qocalı-cavanlı, atlı-piyada, güclü-gücsüz, dövlətli-kasıb) hamınız cihada çıxıb malınız və canınızla Allah yolunda vuruşun!"*[164]

*"Allah malları və canları ilə vuruşanları evlərində əyləşənlərdən (cihada getməyənlərdən) dərəcə etibarilə üstün tutdu".*[165]

*"Əgər əhd bağladıqdan sonra andlarını pozsalar və dininizi təhqir etsələr, küfr başçıları ilə vuruşun. Onların həqiqətdə andları yoxdur".*[166]

*"(Yer üzündə) fitnə (şirk) qalmayıb bütün din yalnız Allaha məxsus olanadək onlarla vuruşun!"*[167]

---

162 "Nəhcül-bəlağə" 27-ci xütbə

163 "ət-Tövbə" surəsi, ayə 73

164 "ət-Tövbə" surəsi, ayə 41

165 "ən-Nisa" surəsi, ayə 95

166 "ət-Tövbə" surəsi, ayə 12

*"Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzi (Cənnət ruzisi) yeyirlər".*[168]

İslamın mənbə kitablarından olan təkcə "Vəsail əş-şiə" kitabında cihad haqqında, onun fəzilət və hökmləri haqqında və cihadla bağlı məsələlər haqqında 1223 hədis vardır. "Nəhcul-bəlağə"yə nəzər yetirdikdə İmam Əli ibn əbu Talib(ə)-ın cihada xüsusi yer verməsini, əhəmiyyətinə görə onu ən ali səviyyəyə yüksəltməsini və ona ən böyük vəsflər verməsini anlamaq olar. İmam Əli(ə) buyurur:

**"Cihad İslamın şərəfidir".**[169]

**"Allah xatirinə mallarınızla, canlarınızla, dillərinizlə Allah yolunda cihad edin".**[170]

**"Allah yolunda layiqincə vuruş və bu yolda səni heç bir məzəmmət saxlamasın".**[171]

**"Nöqsan sifətlərdən münəzzəh olan Allaha doğru yönələnlərin yapışdıqları ən böyük vəsilə Ona və Rəsuluna inanmaq yolunda cihaddır. Cihad İslamın ən uca zirvəsidir".**[172]

Cihad ilkin müsəlmanların həyatlarının ayrılmaz bir hissəsini təşkil edirdi. Onlar cihadı Cənnətə nail olmaq üçün ən sürətli və müxtəsər bir yol hesab edirdilər. Hər biri Allah yolunda vuruşmaq kimi qiymətli fürsəti gözləyir, ona doğru tələsir və bir-birini məhz cihadla təbrik edirdilər.

---

167 "əl-Ənfal" surəsi, ayə 39
168 "Ali İmran" surəsi, ayə 169
169 "Nəhcül-bəlağə" Hikmətli kəlamlar, №252
170 "Nəhcül-bəlağə" 47-ci xütbə
171 "Nəhcül-bəlağə" 31-ci xütbə
172 "Nəhcül-bəlağə" 110-cu xütbə

Hənzələ ibn Əbu Amir bütün cavanlığını zəhmət və əməyə sərf edərək, evlənmək üçün bir məbləğ pul topladı. Ailə qurduğunun ilk gecəsi illər boyu çəkdiyi əziyyətin bəhrəsini görməyə, arzuları və xəyalları içində yaşamağa başladığı bir vaxtda cihad çağırışını eşidir. Cəld evinin pəncərəsindən boylanır. Müsəlmanların bir-birini cihada sövq etdiyini, cihad çağırışları ilə hərtərəfə səsləndiklərini görür. Hənzələ özündən asılı olmadan, hətta, cənabət qüslu verməmiş evdən çıxmağa tələsir. Həyat yoldaşı onun qarşısını kəsməyə, ona mane olmağa, cihaddan yayındırmağa, onun qadına olan hissiyyatını oyatmağa, nə qədər çalışsa da, Hənzələ evdə qalmağa razı olmayaraq cihada gedəcəyini israr edir və toyunun səhəri günü şəhadətə yetişir.

Peyğəmbər(s) buyurmuşdur: "**Sizin bu yoldaşınıza, yəni Hənzələyə mələklər** qüsl **verdi**. Həyat yoldaşından Hənzələ haqqında soruşarkən dedi: "**Cihad çağırışını eşidərkən cənabətli halda evdən çıxdı**"[173]

*Əmr ibn əl-Cumuh döyüşlərin birində ayağından yaralanır və axsaq olur. Buna baxmayaraq, cihad çağırışını eşidərkən və dörd oğlunun döyüşə hazırlaşdığını görərkən vicdanı ona evdə qalmağa icazə vermir. Həyat yoldaşının və oğlanlarının etirazına məhəl qoymayaraq evdən çıxır və deyir: –Bu axsaq ayağımla Cənnəti ayaqlamaq istəyirəm.*

*Ailəsi və oğlanları onu evdə saxlamaq istədilər. Əmrə belə dedilər: –Həqiqətən, hər şeyə qadir və uca Allah səni bu döyüşdən üzrlü bilmişdir. Lakin o, Peyğəmbər(s)-in yanına gələrək deyir: –Oğlanlarım məni evdə saxlamaq və səninlə birlikdə cihada çıxmağıma*

---

[173] İbn Hişam, "Əs-sirə ən-nəbəviyyə", c.3, səh.25, Beyrut çapı

*mane olmaq istəyirlər. Allaha and olsun ki, mən bu axsaq ayağımla Cənnətdə gəzməyi arzulayıram.*

*Peyğəmbər buyurur:* –Sənə gəlincə, Allah səni bu cihaddan üzrlü bilmişdir və sənə cihad etmək vacib deyildir. *Sonra Əmrin oğlanlarına və tayfasına belə dedi:* –Onun qabağını kəsərək mane olmayın. Ola bilsin ki, Allah ona şəhidlik qismət etsin. Ona mane olmayın.

*Əmr də döyüşə çıxır. O, belə deyirdi: –Ey Allahım, məni şəhidlik qismət elə və məni ailəmə qaytarma.*

*Bu axsaq mücahid Ühüd döyüşündə böyük şücaət göstərmişdir. Düşmənlərin üzərinə hücum edərək deyirdi: –Allaha and olsun ki, mən Cənnət üçün darıxmışam. Oğlu da, həmçinin, meydanda böyük şücaət göstərir və hər ikisi Allah yolunda şəhadətə qovuşurlar".*[174]

*İmam Hüseyn(ə) Aşura günü onları gözləyən yol haqqında səhabələrinə xəbər verdikdə İmam Həsən(ə)-ın oğlu 14 yaşlı Qasim Aşura gününün gecəsi əmisi İmam Hüseyn(ə)-ın yanına tələsdi. İmam Hüseyn(ə) səhabələrinə belə buyurdu:* "Sabah mən və mənimlə birgə sizin hamınız öldürüləcəksiniz və sizdən bir nəfər də sağ qalmayacaqdır".

*Onlar belə dedilər: "Allaha şükr olsun ki, bizə sənin köməkçin olmağı nəsib etdi və səninlə birlikdə öldürülməyi qismət etdi". Bu vaxt Qasim əmisi Hüseyn(ə)-a yaxınlaşaraq deyir: "Mən də öldürülənlərdənəmmi?"*

*İmam Hüseyn(ə) Qasimə cavab verməmişdən əvvəl ondan soruşdu:* "Ey oğlum, ölüm sənin üçün necədir?"

---

[174] Şeyx Cəfər Sübhani, "Seyyidul-mursəlin", c.2, səh.174, Qum şəhəri, İslam nəşriyyatı müəssisəsi, çap 1

*Qasim cavabında belə dedi: "Ey əmi, ölüm mənim üçün baldan da şirindir".*[175]

## MÜRTƏCE FİKİRLƏRƏ VƏ MƏNFİ XİSLƏTLƏRƏ QARŞI CİHAD –BÖYÜK CİHAD

İnsanın daşıdığı ideologiya və təfəkkürünün ehtiva etdiyi məfhumlar onun bütün işlərini müəyyənləşdirir və hərəkətlərini istiqamətləndirir. Məsələn, bəzi zəngin şəxslər yaşayış məntəqələrindən kənar bir yerdə boş ərazi sahələri alırlar. Əgər həmin ərazini ən ucuz qiymətə başqa birnə təklif etsələr, o, bununla razılaşmaz. Əgər birinci şəxsin bu ərazi sahəsini almaq meylinin səbəbini, ikinci şəxsin isə bu ərazi sahəsini ən ucuz qiymətə belə almamağının səbəbi araşdırılsa, məlum olar ki, səbəb birinci şəxsdə olan uzaqgörənlikdir. Belə ki o, bir neçə ildən sonra bu boş ərazi sahəsinin yaşayış məntəqəsinə çevriləcəyi və bahalı bir sahə olacağı haqqında fikirləşir. Bu uzaqgörənlik və bu təfəkkürlə o, boş ərazi sahəsini almağı qərarlaşdırır. İkinci şəxs isə belə bir uzaqgörənlik və təfəkkürə malik olmadığı üçün boş ərazini almaqdan imtina edir.

Beləliklə, insanın dünya görüşü onun istiqamətlənməsində böyük rol oynayır və onun bütün işlərini müəyyənləşdirir.

Bu əsasən də, İslam dini, məhz bu sahəyə diqqət yetirərək bildirir ki, nəfsdə mövcud olan mənfi hallara qarşı vuruşmaq, mürtəce düşüncələri aradan aparmaq, əvəzinə də isə insanın ruhunda cihad və mübarizə anlayışını formalaşdırmaq lazımdır. Budur ən böyük cihad. Budur insanı ehtiyac duyulanda hər ləhzədə

---

175 Şeyx Abbas Qummi, "Nəfsul məhmum", səh.230, Qum şəhəri

cihada, özünü qurban verməyə və fəda etməyə tam hazır vəziyyətdə saxlayan əməl.

İmam Əli(ə) buyurub: "Peyğəmbər(s) kiçik bir ordunu döyüşə göndərir. Qayıtdıqları zaman onlara belə deyir: kiçik cihada əməl etmiş və üzərilərində böyük cihada əməl etmək vacib olaraq qalmış insanlar xoş gəlmişlər! "

Soruşuldu: *–Ya Rəsulallah, böyük cihad nədir?*

Peyğəmbər(s) buyurdu: –Nəfslə edilən cihad.

Peyğəmbər(s) buyurub: "Ən üstün cihad bir kəsin öz nəfsi ilə mübarizə aparmasıdır".[176]

## MƏNFİ XÜSUSİYYƏTLƏR VƏ MÜRTƏCE TƏFƏKKÜR

Maraqlıdır, insanın nəfsində yuva salan, onu cihaddan yayındıran neqativ hallar və insanın təfəkkürünü inkişafdan saxlayan, onu mübarizə və fədakarlıq şərəfinə nail olmağı qadağan edən mürtəce düşüncələr hansılardır? Görəsən, İslam dini belə neqativ hallara və təfəkkürə qarşı necə müqavimət göstərərək bu problemi həll edir? İslam dini fərdə hansı anlayışları və metodları təqdim edir?

Cavab:

*1.Həyata qapanmaq və rahatlığı sevmək;* Təbiətinə görə hər bir insan həyatı sevir, ona maraq göstərir, rahatlıq axtarır və bu rahatlığı qorumağa çalışır. Cihad isə insanın rahatlığını əlindən alır və onun həyatını ölümlə qarşı-qarşıya qoyur. Burada həyata və rahatlığa bağlı olan insan nəfsi ilə, fədakarlığa səsləyən cihada

---

[176] Hürr əl-Amuli, "Təfsil və vəsail əş-şiə", c.15, səh.163, Qum şəhəri

hazır olmağın vacibliyini tələb edən ruh arasında mübarizə alovlanır.

İslam dini bu problemi həll edərək insana sərt, lakin dürüst bir məntiqlə deyir: –Ey rahatlığını və həyatını ölümdən qorumaq üçün qorxaraq cihaddan yayınan insan! Sən bu rahatlığın və həyatın davam edəcəyinə zaminsənmi? Rahatlığını əlindən alacaq xəstəlik və yaxud həyatına son qoyacaq bir hadisə haqqında fikirləşmisənmi? Yoxsa sən, ölüm mələyinin səni ziyarət etməyəcəyindən əminsən? Cavab "əsla yox" olan təqdirdə nə üçün ölümündən faydalanaraq böyük savab və izzətə nail olacağın bir vaxtda fürsəti qaçırdaraq özün üçün qiymətsiz, heç bir mükafatı olmayan və ucuz bir ölümü rəva bilirsən?

Məsələyə digər tərəfdən baxaq. Axirətə, ölümdən sonrakı Cənnət və Cəhənnəmə iman gətirməmisənmi? Nəyə görə cihaddan yayınmaqla özünü Cəhənnəmə sürükləyir və bir neçə günlük, yaxud bir neçə illik fani həyatını qorumaq üçün əbədi Cənnəti itirirsən?

Allah-təala Qurani-kərimdə buyurur: *"Ey iman gətirənlər! Sizə nə oldu ki, "Allah yolunda döyüşə çıxın" - deyildikdə yerə yapışıb qaldınız. Yoxsa axirətdən vaz keçib dünya həyatına razı oldunuz? Halbuki dünya malı axirət yanında (axirətlə müqayisədə) yalnız cüzi bir şeydir! Əgər (sizə əmr olunan bu döyüşə) çıxmasanız, Allah sizə şiddətli bir əzab verər və sizi başqa bir tayfa ilə əvəz edər (yerinizə başqa bir tayfa gətirər)".*[177]

İmam Əli(ə) buyurub: "Həqiqətən də, ölüm elə bir istəklidir ki, nə oturan onun pəncəsindən qurtarar, nə də ondan qaçan onu aciz edə bilər. Ölümün ən şərəflisi isə

---

[177] "ət-Tovbə" surəsi, 38-39-cu ayələr

(Allah yolunda) öldürülməkdir. Əbu Talib oğlu Əlinin canının sahibinə and olsun ki, yataqda itaətsiz ölməkdənsə, qılıncla min dəfə vurulmaq mənə daha yaxşıdır".[178]

"Allaha and olsun, əgər bu dünyanın qılıncından qaçsanız da, axirət qılıncından qaça bilməyəcəksiniz. Həqiqətən, fərarilikdə(ölümdən qaçmaqda) Allah qəzəbi, zillət və ar vardır".[179]

İmam Hüseyn(ə) buyurub: "Əgər dünya qiymətli hesab edilərsə, Allahın axirəti ondan daha uca və üstündür. Əgər insan ölmək üçün yaradılmışsa, Allah yolunda qılıncla ölmək daha yaxşıdır".[180]

*2.Həyat və din anlayışının səhv başa düşülməsi;* İnsanların əksəriyyəti hesab edir ki, həyat, yalnız yeyib-içmək, ləzzət və yatmaqdan ibarətdir. İnsan bu şeyləri əldə edərsə kifayətdir. Ona görə də izzət, kəramət və şərəf kimi anlayışlar o qədər də əhəmiyyət kəsb etmir. Amma dərrakəli, mömin insan həyatın izzət, kəramət və şərəfdən ibarət olduğunu anlayır. Əgər bunlar əldə edilməzsə, həyatın heç bir qiyməti olmaz.

İmam Əli(ə) buyurub: "Ölüm qəhr olaraq, alçalaraq yaşamaqdan doğur. Dirilik qəhr edərək, ucalaraq ölməkdəndir".[181]

İmam Hüseyn(ə) buyurub: "Mən ölümü səadət, zalımlarla yaşamağı isə ar bilirəm".[182]

Bir qism insanlar da vardır ki, onlar dindəki cihad mövzusunu səhv anlayır və belə deyirlər: cihada izn verən

---

178 "Nəhcül-bəlağə" 123-cü xütbə
179 "Nəhcül-bəlağə" 124-cü xütbə
180 Baqir Şərif əl-Qırşi, "Həyatul İmamil-Hüseyn", c.3, səh.61
181 "Nəhcül-bəlağə" 51-ci xütbə
182 Məhəmməd Baqir əl-Məclisi, "Biharul-ənvar", c.44, səh.192

məsum İmam olmadığı üçün cihad vacib deyildir. İslam dininin cihad mövzusundakı fiqhi məsələlərdən az da olsa anlayışı olan hər bir kəs bu fikrin yanlışlığını kəşf edə bilər. Fəqihlər cihadı iki qismə bölürlər:

*a)İbtidai cihad, yəni Allah yolunda İslam dininin digər cəmiyyətlərdə yayılması və yer üzündə Allah kəlamının ucaldılması üçün edilən cihad.* Bəli, belə bir cihadda məsum İmamın rəhbərliyi və izni şərtdir. Həmçinin bu cihadın vacibliyi kifaidir, yəni kifayət qədər insan cihada qalxdığı zaman vaciblik digərlərinin boynundan düşür.

*b)Din, vətən, xalqın hüququ, məzlumların, habelə insanın özünün, namusunun, malının müdafiəsi yolunda cihad.* Belə bir cihad hər bir fərdə vacibdir və məsum İmamın izni şərt deyildir. Əgər bir şəxs bu ali hədəflərin biri səbəbindən öldürülərsə, Allah dərgahında şəhid hesab edilər. Peyğəmbər (s) buyurub: **"Kim ailəsi yolunda öldürülərsə şəhiddir, kim hüquqları yolunda öldürülərsə şəhiddir və kim malı yolunda öldürülərsə şəhiddir".**[183]

Hürr əl-Amuli özünün **"Vəsail əş-şiə"** kitabında cihad mövzusuna aid xüsusi fəsil ayırmışdır. Hürr əl-Amuli bu fəsildə 17 hədis qeyd etmişdir. Bu hədislərin sonuncusu İmam Əli(ə)-dandır. Həzrət belə buyurur: **"Kiminsə evinə oğru girərsə onu vursun.Bu əməlinə görə onu günah gözləyirsə, mən bu günahda onun şərikiyəm".**[184]

Biz "Nəhcul-bəlağə"də Həzrət Əli(ə)-ın Müaviyənin təcavüzkar ordusuna müqavimət göstərmədikləri üçün

---

[183] Hürr əl-Amuli, "Təfsilu vəsail əş-şiə", c.15, səh.120-121
[184] Hürr əl-Amuli, "Təfsilu vəsail əş-şiə", c.15, səh.123

bir qövmü danladığını və məzəmmət etdiyinə rast gəlirik.

İmam Əli(ə) belə buyurur:

"Sonra canlarını qorumaq üçün qaçdılar. Nə onlardan bir nəfər yaralandı, nə də onlardan bir nəfərinin qanı axıdıldı".[185]

"Tfu, ar olsun sizə arxasınca ox atılan bir hədəf kimi qaçdığınız zaman: –sizin üzərinizə hücum edilir, siz isə hücum etmirsiniz və sizə qarşı vuruşulur, siz isə vuruşmursunuz".[186]

Şeyx Məhəmməd Həsən Nəcəfi özünün "Əl-cəvahir" kitabında cihadı aşağıdakı kimi bölür:

*«Birincisi –İslama dəvət üçün müsəlmanlar tərəfindən başlanılan cihad. Bu növ cihadda qeyd edilən şərtlərin olması zəruridir. Cihadın vacibliyi isə kifaidir, yəni kifayət qədər insanın cihada qalxması ilə vaciblik digərlərinin boynundan düşür.*

*İkincisi – Düşmən müsəlmanların üzərinə hücum edərək ərazilərini tutmaq, ölkələrini istila etmək, müsəlmanları əsir götürmək və onların əmlakını müsadirə etmək istədikləri zaman müdafiə məqsədilə onlara qarşı cihad etmək. Bu növ cihad azad adama və qula, kişiyə və qadına, sağlama və xəstəyə, kora, topala və həmçinin ehtiyac olarsa qeyrilərinə də vacibdir. Bu cihadda məsum İmamın iştirakı və izni şərt deyildir. Həmçinin, yalnız hücuma məruz qalmış müsəlmanlara aid deyildir. Habelə, vəziyyətdən xəbərdar olan hər bir şəxs, əgər hücuma məruz qalmış müsəlmanların kifayət qədər müqavimət göstərməyə qüdrətləri çatdığını bilmirsə, onlara köməyə tələsməyi vacibdir. Bu vaciblik*

---

185 "Nəhcül-bəlağə", 27-ci xütbə
186 "Nəhcül-bəlağə", 27-ci xütbə

*hücuma məruz qalmış müsəlmanların yaxınlığında yaşayanlara daha çox təkid edilir».*[187]

*3.Saxta bəraətr;* Başqa bir qism insanlar da vardır ki, onlar, cihadın vacibliyini etiraf edirlər, lakin cihaddan yayınmalarına və cihada getməmələri üçün özlərinə saxta bəraətlər qazandırırlar. Bəzən təhsilini sona çatdırması ilə özünə bəraət qazandırır, bəzən ticari məsuliyyətinə görə özünə bəraət qazandırır, bəzən ailəsinə və övladlarına görə özünü üzrlü bilir, bəzən isə çətin vəziyyətdən şikayətlənirlər. Qurani-kərim özlərinə saxta bəraət qazandıranları pis sonluqla təhdid edərək deyir:

***"(Ya Məhəmməd!) De: Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, qəbiləniz (qohumlarınız), qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihaddan əzizdirsə, Allahın əmri (əzabı) gəlincəyə qədər gözləyin. Allah fasiqləri doğru yola yönəltməz".***[188]

İmam Əli(ə) səhabələrinin cihaddan yayınan bir ordu olduğunu və cihaddan yayındıqlarına görə özlərinə bəraət qazandırdıqlarını gördüyü zaman, onlara belə bir xütbə söyləmişdir:

**"Yay günlərində onların üzərinə hücum etməyinizi əmr etdiyim vaxt: –hələ bir az dayan, bizə dəymə, bu isti günlər ötüşsün, –dediniz. Qış günlərində onların üzərinə hücum etməyinizi əmr etdiyim vaxt: –hələ bir az dayan, bu soyuq günlər ötüşsün, –dediniz. Bütün bunlar istidən, soyuqdan qaçmaqdır. İstidən, soyuqdan qaçsanız, Allaha and olsun ki, qılıncdan daha bərk qaçarsınız. Ey kişiyə**

---

[187] Məhəmməd Həsən Nəcəfi, "Cəvahir-əl-kəlam", c.21, səh.18
[188] "ət-Tovbə" surəsi, 24-cü ayə

oxşayıb, kişi olmayanlar, uşaq kimi hərdəmxəyallar, gərdəkdəki qadınlar kimi düşünənlər, ey arxada gizlənənlər, kaş ki, mən sizi görməyəydim, kaş ki, sizi tanımayaydım".[189]

*4.Söz inqilabı;* Bəzi insanlar da vardır ki, onlar cihadın əvəzinə söz, inqilabi yazı və xütbələrlə kifayətlənirlər. Lakin belə insanlardan özünü fəda, həqiqi mübarizə və cihad tələb olunan vaxt onların çox-çox uzaqlara qaçdığını görürsən. İmam Əli(ə) "Nəhcul-bəlağə"də bu qəbildən olan səhabələrinə xitab edərək belə deyir: "Ey cismən bir yerə toplaşmış, arzu və istəkləri ilə müxtəlif olan insanlar, sözünüzlə sərt qayalar əriyər, gördüyünüz işlərdə düşmən sizə həsəd aparar. Məclislərdə deyirdiniz: –Bizə yan baxan varmı? Döyüş vaxtı çatdıqda deyirdiniz: –Bizdən uzaq ol, uzaq".[190]

## CİHAD NƏYƏ QARŞI VƏ NECƏ OLMALIDIR?

İslam dininin istismar və zülmə müqavimət göstərməsi üçün müxtəlif güc, qüvvət və silahlara ehtiyacı vardır. Media, qələm, fəaliyyət, maddiyat, ictimai hərəkat –bütün bunların hamısı silahdır və döyüşdə bütün bu silahların olması tələb olunur. Bu səbəbdən, Peyğəmbər(s) Xədicənin var-dövləti ilə Əlinin qılıncını bir yerə cəm etdi. Qurani-kərim də insanı malı ilə, canı ilə cihada sövq edir. İmam Əli(ə) deyir: "Allah xatirinə, mallarınızla, canlarınızla, dillərinizlə Allah yolunda cihad edin".[191]

İslam dinində cihadın hədəflərinə gəlincə isə, onu qısa şəkildə aşağıdakı kimi bəyan etmək olar:

---

[189] "Nəhcül-bəlağə", 37-ci xütbə
[190] "Nəhcül-bəlağə" 29-cu xütbə
[191] "Nəhcül-bəlağə" 47-ci xütbə

*1.Dünyada İslam dinini yaymaq, bəşəriyyəti küfr və azğınlıqlardan xilas etmək üçün. Qurani-kərimdə buyurulub:* ***"Yer üzündə fitnə qalmayıb, bütün din yalnız Allaha məxsus olanadək onlarla vuruşun".***[192]

*2.Dinin, vətənin, canın və hüquqların qorunması üçün Peyğəmbər(s) buyurub:* "Kim hüquqları yolunda öldürülürsə, şəhiddir".[193]

*3.Ümmətdə islahat aparmaq üçün. İmam Əli(ə) buyurub:* "Onlarla (Məkkə müşrikləri ilə) Quranda nazil olanlara inanmadıqları üçün vuruşduğum kimi, indi də Quranın təvilinə (təfsirinə, batini mənalarına) inanmadıqları üçün vuruşaram".[194]

*4.Məzlumları və məhrumiyyətə uğramışları müdafiə etmək üçün. Allah-təala Qurani-kərimdə buyurur:* ***"(Ey müsəlmanlar!) Sizə nə olub ki, Allah yolunda və müstəzəflər (acizlər) uğrunda vuruşmursunuz?"***[195]

İmam Əli(ə) buyurub: "Allaha and olsun ki, müsəlmanlardan hər hansı biri heç bir günahı olmadan öldürülərsə, onu qətlə yetirən ordunun hamısını öldürmək mənə halaldır".[196]

---

192 "əl-Ənfal" surəsi, 39-cu ayə

193 Hürr əl-Amuli, "Təfsilu vəsail əş-şiə", c.15, səh.120-121

194 Əli ibn İsa Əl-Ərbəli, "Kəşful-ğimə",c.1, səh.121

195 "ən-Nisa" surəsi, ayə 75

196 "Nəhcül-bəlağə" 178-ci xütbə

## MÜNDƏRİCAT


Müqəddimə ........................................ 3
İmam Əli (ə) və «Nəhcül-Bəlağə» ............10
İmam gənc olarkən ...................................10
İmam qocalıq dövründə ...........................13
Sonuncu pilə ............................................15
«Nəhcül-Bəlağə» haqqında
nə demək olar? .........................................15
«Nəhcul-Bəlağə»nin əhəmiyyəti .............18
Qərəzli hücum ..........................................19
«Nəhcül-Bəlağə»də ictimai ədalət............22
Kainatda mövcud olan ədalət ..................23
İctimai ədalət ...........................................25
Cəmiyyətdə zülmün növləri .....................26
Zülmə qarşı mövqeyimiz .........................34
Nəhcul-Bəlağədə haqq anlayışı ...............35
Haqqın meyarı nədir?...............................37
Haqq və onu izləyənlər haqqında bəhs....42
Haqq qarşısında məsuliyyətimiz .............44

«Hənc-Ul-Bəlağə»də azadlıq anlayış ...... 46
Kainatın mütiliyi .................................. 47
İnsanın hürriyəti .................................. 48
Qəza və qədər ....................................... 50
İrsiyyət və tərbiyə ................................ 52
Azadlığın təzahürləri ............................ 54
Cəza nə üçündür? .................................. 61
İnsan necə kölə edilir? .......................... 62
«Nəhcul-Bəlağə»də məsuliyyət anlayışı .. 65
Ümmətin faciəli vəziyyəti ...................... 66
Nəhcül-Bəlağədə cihad anlayışı ............. 77
Mürtəce fikirlərə və mənfi xislətlərə qarşı
cihad-böyük cihad ................................. 81
Mənfi xüsusiyyətlər və
mürtəce təfəkkür .................................... 82
Cihad nəyə qarşı və necə olmalıdır? ........ 88

Redaktor: Emin Salman oğlu
Korrektor: Fərhad Mədətov

Yığılmağa verilib 11.11.2004, Qeydiyyat tarixi: 28.12.2004
Qeydiyyat nömrəsi: DK-642d, Çapa imzalanıb: 02.01.2005,
Kağız formatı: 60x84 $^1/_{16}$ şərti çap vərəqi 5,25, ofset çapı
Kitab «Qələm» Nəşriyyatının poliqrafiya müəssisəsində hazır deopozitivlərdən çap olunmuşdur.

Ünvan: Hüsü Hacıyev küç 1.
Tel: 497-76-10

Kitabın çap və s. hüquqları qorunur.